Xalqın qəzeti!

# Xalq qəzeti

№ 165 (30281) 6 avqust 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu 4 məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir.**

# “Şahdəniz” qaz hasilatının şah damarıdır




**1999-cu il iyulun 12-də Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağının açılması rəsmən elan olunub. Bu münasibətlə ölkə Prezidenti, ulu öndər Heydər Əliyevin iştirakı ilə təntənəli təqdimat mərasimi keçirilib.**

Açılışda ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev, əfsanəvi neftçi-geoloq, akademik Xoşbəxt Yusifzadə, eləcə də Böyük Britaniya, ABŞ, Norveç, Rusiya, İtaliya, Türkiyə, Fransa və İranın ölkəmizdəki səfirləri iştirak ediblər.

Ümummilli lider Heydər Əliyev bu əlamətdar hadisə münasibətilə neftçiləri və ölkə ictimaiyyətini təbrik edərək deyib: “Şahdəniz” yatağı Azərbaycanın Xəzər dənizindəki sektorunda, demək olar ki, ən böyük və ən zəngin neft və qaz yataqlarından biridir... “Şahdəniz” konsorsiumunun prezidentinin və başqa natiqlərin burada verdikləri məlumatlar bizi həddən artıq sevindirir və güman edirəm ki, bu, dünya miqyasında böyük bir hadisəyə çevriləcəkdir”.

Xatırladaq ki, “Şahdəniz” yatağı uzun illərdir ki, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Burada qazma işlərinə 1990-cı ildə başlanılsa da, vəsait çatışmazlığı səbəbindən işlər yarımçıq dayandırılıb. Yalnız 1996-cı ilin iyun ayında Bakıda “Şahdəniz” qaz-kondensat yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş imzalandıqdan sonra neft ölkəsi kimi tanınan Azərbaycan, eyni zamanda, iri qaz təchizatçısı kimi də dünyanın maraq dairəsinə daxil olub. Bu saziş dünyanın transmilli neft şirkətlərinin “Əsrin müqaviləsi”nin imzalanması ilə təməli qoyulmuş Azərbaycanın yeni neft strategiyasının hədəflərinin dəqiqliyinə inamı bir qədər də artırıb.

**(ardı 7-ci səhifədə)**

## Gürcüstanın Baş naziri Zati-aliləri cənab İrakli Qaribaşviliyə

**Hörmətli cənab Baş nazir!**

Şovi kurort bölgəsində baş vermiş güclü torpaq sürüşməsi nəticəsində insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Gürcüstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

# Cinayətin sübutları, vandalizmin şahidləri durur

**Belə məlum olub ki, Avropa İnsan Haqları Məhkəməsi (AİHM) 32 il bundan əvvəl Meşəlidə hərbi cinayətlər törətmiş erməni faşisti Vaqif Xaçatryan haqqında məlumat vermək üçün Azərbaycana bir həftə vaxt verib. Yəni Bakı avqustun 8-dək Avropanın ali femidasına Xaçatryanın cinayət əməlləri ilə bağlı sübut və dəlilləri təqdim etməlidir. Bundan əlavə, Azərbaycan Avropa İnsan Haqları Məhkəməsini həmin şəxsin olduğu yer, saxlanma şəraiti, səhhəti, göstərilən tibbi yardım və qaytarılmasının mümkünlüyü barədə məlumatlandırmalıdır.**

**(ardı 3-cü səhifədə)**



# Azərbaycan qazı Bolqarıstanda “mavi yanacağ”ı ucuzlaşdırıb

Səhifə ➪ 7

## Separatçıların “xalq hərəkatı”



**Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli şəxsləri girov götürən separatçı rejim onun ünvanına Bakıdan səslənən davamlı tənqidi fikirlərdən sonra özünü yeni ampluada təqdim etmək qərarına gəlib. Necə deyərlər, sudan quru çıxmağa çalışır. Rejim çirkin niyyətlərini, reinteqrasiya prosesinə mane olmaq cəhdlərini artıq başqa formada reallaşdırmağa çalışır. Onlar sadə insanları qabağa verərək Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinə doğru yürüş təşkil etməyi planlaşdırırlar.**

**(ardı 4-cü səhifədə)**

## Qarabağ zəfəri Zəngəzur dəhlizinin açılmasını zərurətə çevirib



Səhifə ➪ 4

## Qəbələdə alban abidələri niyə dağıdılıb?



Səhifə ➪ 9



## Rusiya–Ukrayna müharibəsi: artıq təkcə hərbçilər deyil, diplomatlar da “döyüşürlər”

Səhifə ➪ 11

# Fransa silah ixracında da liderlik iddiasına düşüb

**Fransa tezliklə Rusiyanı keçərək dünyanın ikinci ən böyük silah ixracatçısı ola bilər. “France24” kanalı Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) hesabatını tərtib edənlərdən biri Piter Vezemanın fikrinə istinad edərək belə iddialı bəyanatla çıxış edib.**

Məlumat verilir ki, Fransa artıq Çini sıxışdırmağa müvəffəq olub və bu tendensiya davam edərsə, Qərb ölkələri bir-iki ildən sonra dünyanın aparıcı silah ixracatçılarına çevriləcəklər.

P.Vezemanın sözlərinə görə, Rusiya ilə Ukrayna arasında münaqişə qlobal silah bazarında əsaslı dəyişikliklərə səbəb olub. Ekspert iddia edir ki, silah bazarında əvvəllər ABŞ və Rusiyanın hökmranlığı vardısa, indi Fransanın dövrü gəlir. Hesablamalara görə, 2024-cü ildən



2026-cı ilə qədər olan dövrdə Paris Rusiyaya çata və hətta onu keçə bilər. Bundan başqa, analitik Fransanın Rusiyanın əvvəllər tutduğu bazarları qismən tutacağını da vurğulayıb.

**(ardı 11-ci səhifədə)**

## MDB ölkələrinin III Oyunları Azərbaycanda



Səhifə ➪ 8

## “Erməni məsələsi” Cabbarlının bədii təqdimatında

Səhifə ➪ 10

## Tarixin qara səhifəsi: 06.08. 1945. 09:45:43



Səhifə ➪ 11

## "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanununun tətbiqi və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 48.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Konstitusiya Qanununun 48.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası nəzərdə tutulur;

1.3. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanununun 2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Konstitusiya Qanununun 2.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

2.1. iki ay müddətində:

2.1.1. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 27.1-ci maddəsinə uyğun olaraq, icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. normativ hüquqi aktın layihəsinin hazırlanmasını, razılaşdırılmasını və normayaratma orqanına təqdim olunmasını təmin edən informasiya sisteminin əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**4.** "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 88; 2013, № 4, maddə 374; 2016, № 10, maddə 1629; 2018, № 7, maddə 1502; 2019, № 4, maddə 631; 2022, № 11, maddə 1253) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1-ci bənddə "95.2-ci maddəsində" sözləri "48.7-ci və 95.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 4.1-1-ci bənd əlavə edilsin:

"4.1-1. həmin Konstitusiya Qanununun 48.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası nəzərdə tutulur;".

**5.** Bu Fərmanın 1-ci və 4-cü hissələri 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

## R.Z.Rəhimlinin Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Rəcəb Zakir oğlu Rəhimli Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 261** **Bakı şəhəri, 3 avqust 2023-cü il**

***"Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adlarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 10, maddə 1306, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 695, № 11, maddə 1280, № 12, maddə 1508; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 5, maddə 577, № 6, maddə 686, № 7, maddə 811, № 8, maddə 1023, № 9, maddə 1083, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 aprel tarixli 129 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"na "Regional mərkəzlər" sözlərindən sonra "Maddi-Texniki Təchizat İdarəsi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nda və 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823; 2020, № 8, maddə 1042; 2022, № 5, maddə 475, № 9, maddə 1028; 2023, № 3, maddə 351, № 4, maddə 500) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 2.2.15-ci yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1047; 2022, № 5, maddə 463, № 9, maddə 1028) ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 4.2.4-cü yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında əsasnamələrin" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 262** **Bakı şəhəri, 3 avqust 2023-cü il**

***"Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"nın təsdiq edilməsi və "Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 263 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun tətbiqi və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 346-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 625 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 11 yanvar tarixli 1960 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1202; 2015, № 2, maddə 215; 2018, № 9, maddə 1938) ləğv edilsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**4.** Bu Qərar 2023-cü il və növbəti illər üzrə tərtib edilən maliyyə hesabatlarına şamil edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin tabeliyində olan "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin ləğvi, bərpa olunan enerji mənbələrindən istifadə sahəsinə özəl sektorun cəlb edilməsi və "Alternativ və bərpa olunan enerji sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 fevral tarixli 810 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bərpa olunan enerji sahəsində islahatların dərinləşdirilməsi, idarəetmə strukturunun qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi, sahəyə özəl investisiyaların cəlb edilməsi və rəqabət mühitinin formalaşdırılması yolu ilə bərpa olunan enerji mənbələrindən enerji istehsalının səmərəliliyinin və həcminin artırılmasına əlverişli şərait yaradılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin tabeliyində olan "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – "Azalternativenerji" MMC) ləğv edilsin.

**2.** "Azalternativenerji" MMC-nin mülki qanunvericiliyin tələblərinə uyğun olaraq kreditorlarla hesablaşmalar aparılmaqla ləğv edilməsi prosesi başa çatdıqdan sonra, qalan əmlakı özəlləşdirməyə açıq elan edilsin.

**3.** Müəyyən edilsin ki, bu Fərmanın 2-ci hissəsi ilə özəlləşdirməyə açıq elan edilən əmlakın:

3.1. özəlləşdirilməsi üsulları barədə qərarlar, onların xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın (bundan sonra – Dövlət Proqramı) 4.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən qəbul edilir;

3.2. özəlləşdirilməsində yerli investorlarla yanaşı, xarici investorların da iştirakına icazə verilir.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 464 nömrəli Fərmanı ilə ləğv edilmiş Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin üçüncü şəxslər qarşısında öhdəliklərinin icrasının təmin edilməsi ilə bağlı zəruri tədbirlər görsün;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə özəlləşdirməyə açıq elan edilmiş əmlakın:

5.1. özəlləşdirilməsini Dövlət Proqramına uyğun olaraq həyata keçirsin;

5.2. investorlar üçün cəlbediciliyinin artırılması məqsədilə məsləhətçi və qiymətləndirici şirkətlər cəlb etməklə, özəlləşdirilməsinin daha səmərəli şəkildə həyata keçirilməsi üçün zəruri tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə özəlləşdirməyə açıq elan edilmiş əmlak Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təhvil verilənədək:

6.1. həmin əmlakın idarə olunmasını və qorunub saxlanılmasını təmin etsin;

6.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə həmin əmlakın idarə olunması və qorunub saxlanılması üçün zəruri maliyyə vəsaitinin ayrılmasına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

6.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**7.** "Alternativ və bərpa olunan enerji sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 fevral tarixli 810 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 104, № 10, maddə 1159; 2014, № 10, maddə 1205; 2020, № 5, maddə 545, № 9, maddə 1148) 7-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 268** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 887; 2022, № 9, maddə 1101, № 12, maddə 1547) ilə təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1.2-ci yarımbənddə "və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsində" sözləri ", peşə təhsili pilləsinin texniki peşə və yüksək texniki peşə təhsili səviyyələrində" sözləri ilə əvəz edilsin.

**2.** 3.4.1-ci yarımbənd üzrə:

2.1. "birinci" sözündən əvvəl "ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsində" sözləri əlavə edilsin;

2.2. "peşə təhsili müəssisələrində" sözləri "peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsində" sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 3.4.1-1-ci yarımbənd əlavə edilsin:

"3.4.1-1. birinci tədris ilinin ilk semestri (yarımili) üçün peşə təhsili pilləsinin texniki peşə təhsili səviyyəsində attestata müvafiq fənlər üzrə yazılmış yekun qiymətlərin ədədi ortasının Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olanlar, digər semestrlər (yarımillər) üçün isə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən 4 və 5 olanlar);".

**4.** 3.9.2-ci yarımbəndə "balın" sözündən sonra "və peşə təhsili pilləsinin texniki peşə təhsili səviyyəsində attestata müvafiq fənlər üzrə yazılmış yekun qiymətlərin ədədi ortasının" sözləri əlavə edilsin.

**5.** 4.2.1-ci yarımbənddə "(peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 71 bal və yuxarı olan)" sözləri "(peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 71 bal və yuxarı, texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən 4 və 5 olan)" sözləri ilə əvəz edilsin.

**6.** 4.2.2-ci, 4.3.1-ci və 4.3.2-ci yarımbəndlərdə "(peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 və yuxarı olan)" sözləri "(peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 bal və yuxarı, texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən 5 olan)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında və "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli 1159 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında və "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli 1159 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1149) 5-ci və 6-cı hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

# Rusiya, Cənubi Qafqazda sülh və "Şarik"in perspektiv umacaqları

## Yaxud Lavrov, Qonçar və kolxoz

**Mövzuya bir lətifə ilə giriş verməyi məsləhət bildik. Belə ki, sabiq SSRİ-nin dağılmağa doğru getdiyi vaxtlarda kolxozlardan can qurtarmaq istəyənlərin sayı artır. Bu durumda kolxozun itləri yığışıb məşvərət edirlər. İt sürüsünün böyüyü olan "Şarik" bildirir ki, hələ gözləmək lazımdır, bəs perspektiv var. Vədə dolanır ikinci il də itlər yenə oxşar məşvərət keçirəndə "Şarik" yenə dillənir: gözləyin perspektiv var. Üçüncü il kolxozda, ümumiyyətlə, heç kəs qalmayanda, digər itlər "Şarik"dən perspektivin nədən ibarət olduğunu soruşurlar. "Şarik"in cavabını yazının sonunda diqqətə çatdıracağıq. Hələlik isə...**

***

Yadınızdadırsa, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov iyulun 25-də özünün vasitəçiliyi ilə Moskvada keçirilmiş Azərbaycanın və Ermənistanın Xarici işlər nazirləri – Ceyhun Bayramovla Ararat Mirzoyanın görüşündən sonra açıqlama vermiş və təxminən bildirmişdi ki, digər vasitəçilərin Bakı ilə İrəvan arasında tez-tələsik hansısa sülh razılaşmasının olduğunu pafoslu təqdim etmələri yolverilməzdir, belə bir addımın atılması real nəticələr doğurmur, əksinə ziyan gətirir. Əslində, Lavrov yeni nə isə deməmişdi. Rusiya XİN-nin rəhbəri əvvəllər də oxşar fikirlərlə gündəmə gəlmişdi. Onun düşüncələri belə təəssürat formalaşdırmışdı ki, Moskva Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına razı deyil.

Ümumən, Rusiyanın arqumenti tərəflərin sülhə doğru məsafə qət etməli olduğu qənaəti üzərindədir. Məsafə nə qədərdir, bununla bağlı nə Kreml öz rəyini açıqlayır, nə də ondan bu barədə soruşan var. Birincisi, Rusiyanın həmin məsafənin uzaqlığı və ya yaxınlığı haqqında nəinki hansısa anlayışı yoxdur, heç mövzu ətrafında götür-qoy etmək belə istəmir. Ona lazım olan Rusiya sülhməramlı kontingentinin bölgədə qalmasıdır ki, onun müddətinin 2025-ci ildə növbəti müddətə uzadılması inandırıcı görünmür.

İkincisi, sülhə doğru məsafə barədə ondan soruşan yoxdur. Soruşan yoxdur, ona görə ki, hamı Moskvanın heç nə deyə bilməyəcəyindən yaxşı xəbərdardır. Mövcud durumda isə meydana Rusiyanın Cənubi Qafqazda sülhün əldə olunmasını istəmədiyinə dair nəticənin çıxması təbiidir. Təbii olmayan, Kremlin bu baxışı dəyişəcək gücdə, ən əsası səmimiyyətdə olmamasıdır. Əvəzində ölkənin siyasiləri düşüncə sırımağı üstün tuturlar. Bu işi görənlərdən biri də Rusiyanın Xarici İşlər Nazirliyinin təmsilçisi Denis Qonçardır.

Bir qədər dəqiqləşdirmə apararaq bildirək ki, D.Qonçar Rusiya XİN-nin Müstəqil Dövlətlər Birliyi üzrə dördüncü departamentinin direktorudur. O, TASS-a müsahibəsində Lavrovun aylar öncə dilə gətirdiklərini təkrarlayıb. D.Qonçar Bakı ilə İrəvan arasında tez bir zamanda sülh müqaviləsinin imzalanmasının yeni konfliktlərə yol açacağı rəyini bölüşməkdədir: "Tələsik hazırlanmış, xam sülh müqaviləsi regiona davamlı sülh gətirməyəcək. Əksinə, gələcəkdə yeni münaqişələrin, faciələrin əsasını qoyacaq. Prioritet sürətə deyil, balanslaşdırılmış və qarşılıqlı məqbul qərarların keyfiyyətli hazırlanmasına verilməlidir".

Diqqət yetirək, Rusiyanın rəsmi təmsilçilərinin bu sayaq açıqlamaları Azərbaycanla Ermənistan arasında, bütün mövcud gərginliklərə rəğmən, sülh gündəminin aktual əhəmiyyət daşıdığı bir vaxtda düşür. Yeri gəlmişkən, ölkəmizin Prezidenti İlham Əliyev də istər "Euronews" telekanalına müsahibəsində, istərsə də Şuşada iyulun 21-23-də reallaşmış Qlobal Media Forumundakı çıxışında 2023-cü ilin sonunadək Bakı-İrəvan sülh razılaşmasına dair gözləntilərini ifadə etmişdi. Belə bir durumda başlıca məqam heç də Kreml təmsilçilərinin nə üçün anti-sülh ovqatına kökləndikləri deyil, daha çox onların gözləmək və sülh müqaviləsini sonraya saxlamaq məntiqindən çıxış etmələrini konkret hansı arqumentlə əsaslandırmalarıdır. Əsaslandırma yoxdur. Amma Rusiya anlamalıdır ki, tərəflərin sülhə doğru yol getməli olduğunu söyləməklə iş aşmır.

***

Bir məqamı da yada salaq. 2020-ci ilin Vətən müharibəsindən sonra Rusiyanın rəsmi çevrələrində Bakı-İrəvan sülh razılaşmasının vacibliyi bildirilir, lakin Qarabağın statusunun müəyyənləşdirilməsinin sonraya saxlanılmasından danışılırdı. Ancaq Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanın, Qarabağ da daxil 86,6 min kvadratkilometr ərazidə suveren hüquqlarını tanıdığını bildirməsindən sonra status məsələsi təxirə düşdü. Maraqlı və təzadlı durum yaranır, elə deyilmi? Deməli, bir halda ki, Qarabağdan yapışmaq mümkünsüzdür, deməli, yapışacaq yer sülh müqaviləsinin özü olmalıdır. Hər halda, başqa cür mühakimə yürütmək mümkünsüz görünür.



Bəli, aydındır ki, Rusiya Azərbaycan və Ermənistan arasında sülhün yaranmasını özünün Cənubi Qafqaz maraqlarına zərər qismində görür. Klassik imperiya təfəkkürü – parçala və hökm sür! Bakı ilə İrəvan dil tapmasın ki, Moskva daim həndəvərdə dolaşa bilsin, özünü xeyirxah mələk qismində göstərmək imkanına malik olsun?

Əlbəttə, nə qədər cılız təsir bağışlasa da, Rusiyanın belə yanaşmasının onun maraq və mənafelərindən irəli gəldiyindən xəbərdarıq. Əslində, Azərbaycan 44 günlük müharibədən sonra öz məqsədlərinə doğru, məsələsinin fərqinə vararaq irəliləməkdədir. Yəni, ölkəmiz gözləmir ki, nə zamansa Kremlin nəzərində canlandırdığı sülh mühiti üçün şərait yetişəcəkdir. Çünki şərait yetişməyə bilər. Ona görə də, məsələ həmin şəraiti və imkanı öz gücü və potensialı ilə yaratmaqdadır. Hər halda, ölkəmiz Qarabağdakı erməni separatizminin sıradan çıxmasını daha otuz il gözləyib Kremlin, yaxud kiminsə şərait formalaşdıracağına ümid bəsləyə bilməz.

***

Sual yaranır: Rusiya fərdi maraqlarını düşünə bilirsə, nə üçün region ölkələrinin mənafelərinin mövcudluğunu saya salmır? Əlbəttə, Moskva bütün tərəfləri nəzərə aldığını bəyan edir. Ancaq onun bununla əlaqədar yalnız özünü düşünmədiyini göstərən hansısa tutarlı arqumenti varmı? Yoxdur! Ədalətli olmaq beləmi çətindir? Ədalətli həll axtarışı yalnız digər vasitəçiləri qınamaqdırmı?

Baxın, fikirlərini diqqətə çatdırdığımız Rusiya XİN-nin MDB üzrə departament rəhbəri D.Qonçar da, belə demək mümkünsə, Lavrov stilində qınamaq yolu tutur. Onun sözlərindən belə çıxır ki, vaxtaşırı olaraq Qərb paytaxtlarında Bakı və İrəvanın "demək olar ki, yaxın həftələr və aylar ərzində" sülh müqaviləsi imzalaya biləcəkləri barədə bəyanatların eşidilməsi düzgün deyil. Burada düzgün olmayan nədir? Qonçarın fikrincə, imzalanma şərtlərini tərəflər özləri müəyyən etməlidirlər. Başa düşmədik, müəyyən edən tərəflər deyil ki? Yuxarı da diqqətə çatdırdığımız kimi, Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, daha nə qalır?

***

Deyəsən, Qoncar mətləbə gəlməyi unutmur. Rusiya XİN-in departament direktoru deyir ki, məsuliyyətli vasitəçilərin vəzifəsi fürsətcil mülahizələr naminə danışıqlar prosesini sürətləndirmək deyil, güclü uzunmüddətli razılaşmaların əldə olunmasına kömək etməkdir. Belə çıxdı ki, Moskvadan başqa hər kəs hər şeyi fürsət bilir. Bu, düzgün yanaşmadır? Eyni məntiqlə deyilə bilər ki, Kreml də Cənubi Qafqazda sülhün olmamasını özü üçün fürsət sayır...

Sən demə, Qonçarın baxışına görə, vəziyyətdən sui-istifadəyə yol verməməyin yolu yerlərdə hökm sürən reallıqlara, ilk növbədə, ən yüksək səviyyədə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli bəyanatlarına və onların əsasında fəaliyyət göstərən mexanizmlərə əsaslanmaq imiş. Üçtərəfli bəyanatların mexanimzləri nə dərəcədə işləkdir? İşləkdirsə, nə üçün Qarabağda qeyri-qanuni erməni hərbi birləşmələri hələ də qalır? Nəyə görə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolu açılmır? Buyursun, Rusiya XİN ölkə prezidenti Vladimir Putinin də imzası olan sənədin icrasını təmin etsin. Etmir və belə görünür, etmək niyyəti də yoxdur. Deməli, qonçarların da regionun ictimai rəyinə verəcəyi mesaj istisnadır.

Bəli, D.Qonçar və onun kimilər Cənubi Qafqazın ictimai rəyinə dürtülmüş şəxslərdir. İndiki halda belələrinin fikir və düşüncələri gərginliyin katalizatorudur. Əlbəttə, onu da vurğulamalıyıq ki, qonçarvari elementlərin varlığı Ermənistan üçün sərfəli görünə bilər. Elə buna görə də ölkənin mediası belələrinin baxışlarını ehkamlaşdırmaq yolunu tutur. Təbiidir ki, bu yolun perspektivi yoxdur.

Sonda əvvəldə diqqətə çatdırdığımız lətifəni tamamlayaq. Daha doğrusu, Şarikin perspektivinə aydınlıq gətirək. Beləliklə, qoca itin ondan nə üçün kolxozdan ayrılmadıqlarını soruşan digər itlərə cavabı bu cür olur: İki il əvvəl kolxoz sədri ilə müavininin söhbətini eşitmişdim. Sədr bildirmişdi ki, vəziyyət belə davam etsə, iki ildən sonra kolxozun bütün azuqəsi lazımsız olacaq və yal kimi itlərə veriləcək.

İndi görünən budur ki, Rusiyanın Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını gözləməyin zəruriliyi ilə bağlı bəyanatları "Şarik"in perspektivindən başqa bir şey deyil. Yeri gəlmişkən, bu perspektivə heç qonçarlar da inanmır.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

---

# Cinayətin sübutları, vandalizmin şahidləri durur

## Avropa İnsan Haqları Məhkəməsi həmin məlumatları açıq mənbələrdən də əldə edə bilər

**(əvvəli 1-ci səhifədə)**



Olduqca maraqlı bir vəziyyət yaranıb. Otuz il ərzində torpaqlarımızı işğalda saxlayan, burada mülki və hərbi xarakterli hər cür cinayətlər törədən, yüz minlərlə insanın haqqını tapdayan bir ölkə Azərbaycanı İnsan Haqları Məhkəməsinə verib.

* * *

Azərbaycanın prokurorluq orqanları haqqında başlatdığı cinayət işi üzrə 2013-cü ildə Vaqif Xaçatryanı beynəlxalq axtarışa verib və o, görülən tədbirlər nəticəsində iyulun 29-da Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən Laçın yolundakı Həkəri nəzarət-buraxılış məntəqəsində saxlanılıb.

Bəli, Vaqif Xaçatryan 1991-ci ilin dekabrında Xocalı rayonunun Meşəli kəndində qanunsuz erməni silahlı dəstəsinin tərkibində azərbaycanlılara qarşı soyqırımı cinayəti törədib. Onun cinayət əməli o dərəcədə aşkar görünür ki, məhkəmə qarşısına çıxarmaq üçün həmin sənədli xronika kifayət edir.

Ermənistanın beynəlxalq məhkəməyə müraciətindən sonra bir həftəlik vaxtla bağlı qərarın Azərbaycana göndərilməsi hansı hüquqi prinsiplərə əsaslanır? Bundan daha maraqlı məqam isə İrəvanın başkəsən terrorçu ilə bağlı müraciətinə Avropa İnsan Haqları Məhkəməsi nədən bu qədər operativ reaksiya verib?

Məsələyə aydınlıq gətirən ölkəmizin Avropa İnsan Haqları Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov qeyd edib ki, Azərbaycan üzvü olduğu İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyadan irəli gələn öhdəliklərə sadiqdir. Məhkəmənin sorğu verdiyi məlumatı ona təqdim edəcək. Ç.Əsgərov İrəvanın müraciətindəki incə məqama da diqqəti yönəldib: "Eyni zamanda, yumşaq desək, təəccüblüdür ki, Ermənistan hökuməti Avropa Məhkəməsinə belə bir müraciəti edib. Axı həmin məlumatlar elektron şəbəkədə, açıq mənbələrdə və mediada yer alıb. Görünür, Ermənistanın acizliyi artıq hüquqi müstəviyə keçib".

"Məlumdur ki, Ermənistan Avropa təsisatları, o cümlədən, Avropa İnsan Haqları Məhkəməsi ilə yaxından əməkdaşlıq edir və bu səbəbdən ermənilərin göndərdikləri şikayətlərə bunca operativ münasibətin şahidi oluruq", – deyən Ali Məhkəmənin sədr müavini daha sonra bildirib: "Bundan əvvəl də, bu ilin iyununda 2 erməni diversantı – Harut Yuriki Hovakimyan və Karen Aşoti Qazaryanla bağlı oxşar gedişatı izlədik. Elə həmin vaxt iki Azərbaycan əsgərinə – Aqşin Bəbirov və Hüseyn Axundova ermənilər tərəfindən işgəncə verilməsi ilə bağlı Avropa Məhkəməsinə şikayət olunmuşdu. Avropa Məhkəməsi reqlamentinin 39-cu maddəsinə əsasən, Ermənistan tərəfinin əsir götürdüyü Azərbaycan əsgərlərinə qarşı zorakılığın dayandırılması tələb olundu. Amma Avropa Məhkəməsi Azərbaycan tərəfinin bu vəsatətini qəbuledilməz saymışdı.

Azərbaycanın əsir alınmış əsgərlərinə işgəncə verilməsi barədə aşkar sübutlara baxmayaraq, heç bir mövqe bildirməyən Avropa İnsan Haqları Məhkəməsi erməni diversantları ilə bağlı "təcili qərar" çıxardı. Yəni Azərbaycandan erməni hərbçinin Azərbaycanda əsirlikdə və ya başqa statusda olması barədə iyunun 6-dək 2 məlumat verməsini tələb etdi. Deyərdim ki, burada xristian təəssübkeşliyindən daha çox qarşı tərəfin bu məhkəmə instansiyasi ilə sıx əməkdaşlığı rol oynayır. Avropa Məhkəməsi ilə işləyən erməni vəkillərin sayı həddindən artıq çoxdur. Azərbaycandan isə bu instansiya ilə əməkdaşlıq edən vəkillərin sayı çox azdır, olanların da əlaqələri zəifdir. Digər tərəfdən, Avropa Məhkəməsinə göndərilən müraciətin məzmunundan da çox şey asılıdır. Müraciətin aydın, dürüst yazılması, Avropa Məhkəməsinin işgüzar dilində olması və əsaslandırılması əsas şərtdir".

* * *

Deməli, Avropa İnsan Haqları Məhkəməsi İrəvanın yurisdiksiyasını qəbul edib və qarşı tərəf bu məhkəmə instansiyasının qəbul etdiyi qərarı icra etməlidir. Onların tələbi budur ki, hərbi cinayətlərə görə Azərbaycanın həbs etdiyi Vaqif Xaçatryan haqqında ətraflı məlumat verilsin. Onsuz da Azərbaycan bu informasiyanı gizli saxlamır və artıq media məhkəməsiz də belə məlumatları açıqlayır.

Hazırda Vaqif Xaçatryan tibb müəssisəsində müalicə alır, onunla Azərbaycanın Ombudsmanı görüşüb, ailə üzvləri ilə əlaqə saxlamağa şərait yaradılıb. Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərovun sözlərinə görə, Xaçatryan hazırda müalicə alır, ona qarşı verilmiş ittihamlar elan edilib, ilkin dindirilməsi həyata keçirilib. Məlumatlarda o da qeyd olunur ki, saxlanılanın səhhəti ilə bağlı həkimlər tərəfindən müayinəsi aparılıb, tibbi müayinədən sonra isə vəkillə və tərcüməçi ilə təmin edilib. Yəni, beynəlxalq hüquqda tələb olunan bütün prosedurlar gözlənilib, erməni tərəfinin Avropa Məhkəməsi qarşısında qaldırdığı haray-həşirin isə heç bir əsası yoxdur.

Sadəcə, bu insident bir həqiqəti də üzə çıxardı ki, Azərbaycan tərəfi Avropa İnsan Haqları Məhkəməsində daimi fəaliyyət göstərə biləcək səriştəli kadrların yetişdirilməsi və ora göndərilməsi istiqamətində təcili tədbirlər görməlidir. Yoxsa, beynəlxalq məhkəmədə, eləcə də Avropanın digər mülki, hüquqi təsisatlarında ermənilərin tamamilə əsassız, demoqogiyadan uzağa getməyən sərsəm iddiaları üzrə haqlı olduğumuz halda haqsız duruma düşə bilərik.

Vəziyyətdən çıxış yolu kimi indiki şəraitdə Avropa məkanında tanınmış, söz və nüfuz sahibi olan peşəkar vəkilləri Avropa İnsan Haqları Məhkəməsində öz milli maraqlarımızın müdafiəsinə yaxından cəlb etməliyik. Bir daha təkrar etmək istərdik ki, beynəlxalq məhkəmələrdə işləmək üçün savadlı vəkillərin hazırlanmasına ciddi ehtiyac var və bu boşluq doldurulmalıdır.

Bəs Xaçatryanı hansı cəza gözləyir? Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 103-cü maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsinə görə 14 ildən 20 ilədək müddətə və ya ömürlük azadlıqdan məhrumetmə, 107-ci maddəsində nəzərdə tutulmuş əməlin törədilməsinə görə isə 10 ildən 15 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Yəni, konkret indiki vəziyyətdə cinayətlərin cəmi qaydasında şəxsə ömürlük azadlıqdan məhrumetmə cəzası məhkəmənin hökmü ilə təyin edilə bilər. Yəni, uşaq qatili Vaqif Çərkəzoviçin həbsxanada çürümə ehtimalı böyükdür.

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

### Ekspert rəyi



**Fikrət SADIXOV, politoloq**

İşğal etdikləri ayrı-ayrı kəndlərimizdə kütləvi qırğınlar törətmiş, Birinci Qarabağ müharibəsi dövründə dörd minə yaxın soydaşımızı əsir götürmüş, onlara olmazın əzablar yaşatmış Ermənistan indi bizi beynəlxalq məhkəməyə verir. Ötən otuz il ərzində Bakı müxtəlif beynəlxalq hüquq instansiyalarına, təşkilatlarına müraciət edib. Həmin müraciətlərin araşdırılması missiyasını ATƏT-in Minsk qrupu öz boynuna götürmüşdü. Bu qrup isə birmənalı şəkildə ermənilərin tərəfini saxlayırdı. Əgər o, bircə dəfə ədalətli qərar çıxarmış olsaydı, Azərbaycan onu tam yerinə yetirməyə hazır idi.

Müharibə cinayətləri, işğalla bağlı BMT-nin dörd qətnaməsinin olduğu da hər kəsə bəllidir. Heç biri yerinə yetirilmədi. Bəs bunu hansı hüquqi məntiqlə izah etmək mümkündür? İrəvan bir cinayətkardan ötrü hay-küy qaldırır, beynəlxalq məhkəməyə müraciət ünvanlayır. Qətiyyən şübhə etmirəm ki, bu cinayət işi ilə bağlı əlimizdə tutarlı sübutlarımız, canlı şahidlərimiz var. Üstəlik, otuz iki əvvəlki video-görüntülər və fotoşəkillər də durur. O tarixi faktların bir neçəsi artıq YouTube-də yerləşdirilib. İnsan Haqları Məhkəməsində bizə qarşı hansısa qərarın qəbul olunmayacağına qəti şübhə etmirəm. Əksinə, biz insanlığa qarşı cinayətlərdə iştirak edən, əli azərbaycanlının qanına bulaşmış şəxsi həbs etmişik. Onun üzərində ədalətli məhkəmə qurulacaq və mütləq layiqli cəzasını alacaq.

# Separatçıların “xalq hərəkatı”

## Xunta rejimi Xankəndidə yaşayan ermənilərdən öz oyunlarında “piyada” kimi istifadə edir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın beynəlxalq normalara uyğun olaraq, aprelin 23-də Ermənistanla sərhəddə yaratdığı məntəqəni “qeyri-qanuni” adlandıran ünsürlər ölkəmizin, guya, Laçın yolu boyunca insanların və nəqliyyat vasitələrinin sərbəst hərəkətini əngəllədiyini və onları mühasirədə saxladığını iddia edirlər. Yürüşün təşkili üçün “Dəhlizin açılması uğrunda xalq hərəkatı” adlı qondarma qurum yaradılıb.

“Hərəkat”ın təşəbbüs qrupunun üzvü Artur Osipyan “Armenpress”in müxbirinə deyib ki, mövcud vəziyyətdən çıxış yolunu dinc mübarizədə görürlər: “Düşdüyümüz vəziyyətdən çıxmaq üçün biz silahsız, çoxlu sayda mülki şəxslə birlikdə Həkəri körpüsünə gedə və problemləri yerindəcə həll edə, yəni danışıqlara başlaya bilərik. Bu, o demək deyil ki, biz “Artsax”ın dövlət orqanlarını rədd edirik. Çünki belə fikirlər var. Bu, səhv yanaşmadır”.

A.Osipyanın sözlərinə görə, “xalq hərəkatı”nın köməyi ilə onlar artıq qaldırılmış məsələləri bir daha qaldıracaqlar: “Biz göstərmək istəyirik ki, “Artsax”da hansısa cinayətkarlar hakimiyyəti ələ keçirməyib və öz iradələrini diktə etməyə çalışmırlar. Əksinə, “xalq və hökumət” öz müqəddəratını təyinetmə və status məsələsində yekdildir. Bu, müstəqil xalq hərəkatıdır. Biz özümüz gedib dəhlizi (?) açmalıyıq”.

O qeyd edib ki, məqsədləri minlərlə insanın iştirak edəcəyi yürüş keçirmək və yolu açmaqdır. Çünki nə Rusiya sülhməramlıları, nə də beynəlxalq ictimaiyyət bu məsələni həll edir. Yürüş iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi məsələsinə toxunan Osipyan əmin olduğunu bildirib ki, onlara ilk növbədə Rusiya sülhməramlıları qoşulmalı, sonra isə dünyaya bunun dinc yürüş, “xalq hərəkatı” olduğu təqdim edilməlidir. Yürüşün vaxtına gəlincə, Osipyan tələsməyəcəklərini bildirib. Deyib ki, cəmiyyətin böyük hissəsinin buna hazır olduğunu görəndə yığıncaq keçirəcəklər: “Artıq hazır olan insanlar bizə təzyiq edirlər ki, tələsin. Amma biz ora az sayda getməyəcəyik. Əsas odur ki, cəmiyyətin əksəriyyətinin dəstəyini qazanaq, indi biz bu problemi həll etməliyik. Hazırda təşkilati işlər davam edir”.

***

Yazının girişində qeyd etdik ki, separatçı rejim onun ünvanına Bakıdan səslənən davamlı tənqidi fikirlərdən sonra özünü yeni formada təqdim etməyə çalışır. Bu, havadan götürülmüş fikir deyil. Laçın yoluna doğru mülki insanların yürüşünün təşkil olunması, Artur Osipyanın “biz göstərmək istəyirik ki, “Artsax”da hansısa cinayətkarlar hakimiyyəti ələ keçirməyib və öz iradələrini diktə etməyə çalışmırlar” deməsi bunun göstəricisidir.



Məlumdur ki, Prezident İlham Əliyev Qarabağ ermənilərinin reinteqrasiyası və onları girov götürmüş rejim başçıları barədə bir neçə dəfə öz mövqeyini açıqlayıb. Dövlət başçımız sonuncu dəfə bu məsələyə iyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində Gürcüstandan Gela Vasadzenin Qarabağın erməni əhalisinin reinteqrasiyası ilə bağlı sualını cavablandırarkən toxunub. Qeyd edib ki, biz bu məsələ ilə bağlı öz mövqeyimizi dəfələrlə bəyan etmişik və maksimum konstruktivlik göstərmişik: “Lakin təəssüf ki, Qarabağda hakimiyyəti ələ keçirmiş xunta və özlərini gah “prezident”, gah “nazirlər”, gah da “deputatlar” adlandıranlar artıq hər kəsdə gülüş doğurur. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayanları girov götürüblər. Biz təşəbbüs göstərdik, mən Qarabağ ermənilərinin nümayəndələri ilə təmasla məşğul olmaq üçün xüsusi nümayəndə təyin etdim və bu təmasların qurulması məqsədilə, o, Qarabağa göndərildi. Birinci görüş məhz orada, Xocalı qəsəbəsində Rusiya sülhməramlı kontingentinin bazasında oldu. Bundan sonra biz Qarabağ ermənilərinin nümayəndələrini dialoqu davam etdirmək üçün Bakıya dəvət etdik. Lakin onlar imtina etdilər, həm də nümayişkaranə şəkildə. Müəyyən vaxtdan sonra biz onları yenidən dəvət etdik. Ola bilərdi ki, hansısa səhv olub, onların həqiqətən də bunu istəmədiklərinə əmin olmaq məsələsində yanlışlıq ola bilərdi. Yenə də imtina etdilər. Lakin mən onda dedim ki, üçüncü dəvət olmayacaq. İstəmirlərsə, demək, istəmirlər”.

Daha sonra proseslərin xronologiyasını təqdim edən Prezident İlham Əliyev bizim bütün addımlarımızın məntiqli, əsaslandırılmış, müdrik və kifayət qədər cəsarətli olduğunu vurğulayıb: “Bu səbəbdən sərhəddə nəzarət-buraxılış məntəqəsinin qoyulması postmünaqişə dövründə mühüm mərhələ idi və şəraiti əhəmiyyətli dərəcədə dəyişdi. Həmçinin bu hərəkətlərin, hərçənd dərhal və bütün aktorlar tərəfindən heç də həvəslə deyil, tam qəbul edilməsi nəticədə legitim olaraq qəbul olundu. Bu da bir mesaj idi. Lakin biz neçə dəfə mesaj göndərməliyik, neçə dəfə işarə etməliyik? Məgər bunlar az idi? Həm Fərrux əməliyyatı, həm 2021-ci ilin mayında Ermənistan-Azərbaycan sərhədində vəziyyət, həm 2022-ci ilin sentyabrında sərhəddə vəziyyət, həm də nəzarət-buraxılış məntəqəsi. Axı biz neçə dəfə onlara mesaj verməliyik? Məgər belə anlamazdırlar?

Ona görə indi yenidən inteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin bax bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır. İndi də istismar edirlər, çünki ekofəallar Laçın-Xankəndi yoluna çıxanda, Xankəndidəki sözdə “erməni rəhbərliyi” sadə vətəndaşlara bu yoldan istifadə etməyə icazə vermirdi...”

Bəli, Qarabağda sadə erməni əhali rejimin girovluğundadır. Azərbaycandan yüksək səviyyədə bəyan edilən bu həqiqət Xankəndidə də eşidilir. Odur ki, onlar indi separatçı, xuntaçı və cinayətkar olmadıqlarını göstərmək istəyirlər. Separatçılara göz dağı olan Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinə doğru yürüşün “xalq hərəkatı” adı altında təşkil olunması da bu məqsədə xidmət edir.

Ümumiyyətlə, Qarabağda yaşayan ermənilər oyunun kiçik fiqurları – piyadalarıdırlar. Daxildən separatçılar, kənardan isə xəbis niyyətli müxtəlif qüvvələr reinteqrasiya prosesinin dinc yolla baş tutmasına imkan vermirlər. İndi yürüş adı altında hansısa təxribatçı hərəkətin törədiləcəyini də istisna etmək olmaz. Ancaq qüdrətli Azərbaycan dövləti yüz belə təxribatın qarşısını ala biləcək gücə malikdir. Reinteqrasiya artıq qarşısıalınmaz prosesdir. Bunu Xankəndidə və İrəvanda da yaxşı başa düşürlər. Lakin vaxtı uzatmağa, geosiyasi durumun dəyişəcəyi nəticəsində yaranacaq hansısa möcüzəyə ümid edirlər. Möcüzə isə baş verməyəcək. Qarabağ erməniləri, nəhayət, bunu anlamalıdırlar.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### Ekspert rəyi

**Zaur MƏMMƏDOV,**
**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq**



– Qarabağdakı ermənilərin keçirmək istədikləri yürüş mənasız işdir. Onlar Azərbaycana reinteqrasiyanı əngəlləmək üçün müxtəlif bəhanələr axtarırlar. Hazırda Qarabağdakı separatçı rəhbərlik orada yaşayan erməniləri aldatmaqla məşğuldur. Onlar proseslərin hara doğru inkişaf etdiyini, eyni zamanda, Azərbaycanın tələblərini də çox yaxşı bilirlər. Sadəcə, özlərinə bəraət qazandırmaq üçün müxtəlif səhnəciklər düzüb-qoşurlar. Əgər ermənilər, doğrudan da, separatçılara inanırlarsa, deməli onlar düşünməyi bacarmırlar. Çünki 30 ilə yaxın dövr ərzində “qlavarlar”ın Qarabağ ermənilərini hansı acınacaqlı duruma saldığı hər kəsə məlumdur. İşğal dövründə bu işğalın legitimləşdirilməsinə dair bütün cəhdləri uğursuz olan, hətta, Ermənistan tərəfindən belə tanınmayan Qarabağ erməniləri Azərbaycanın 2020-ci il müharibəsindəki Zəfərdən sonra Azərbaycanın regionda yaratdığı reallıqlar fonunda nə edə bilərlər?! Nə qədər, nə vaxtadak müqavimət göstərəcək, reinteqrasiya prosesinin qarşısını almağa çalışacaqlar?

Ermənistanla Azərbaycan arasındakı danışıqlar prosesini Qarabağdakı ermənilərin əli ilə pozmaq istəyən xarici qüvvələr əmin olmalıdırlar ki, rəsmi Bakının tələblərini yerinə yetirməmək tarixi sənədlərin ölkəmiz tərəfindən masa üzərinə qoyulması ilə nəticələnəcək. Bu proseslər isə həmin xarici qüvvələrin ümumiyyətlə, bölgədən çıxarılmasına səbəb ola bilər.

Azərbaycan iqtidarı hazırda təmkin nümayiş etdirir. Ermənistanın və Qarabağda erməniləri girov götürənlərin adekvat addım atacağını gözləyir. Amma onlar bilməlidirlər ki, biz 2020-ci ilədək də təmkin nümayiş etdirirdik. Prezident İlham Əliyevin dediyi kimi, biz İkinci Qarabağ müharibəsinin başlanmasına qədər iki il müddətində erməni rəhbərliyinə də şans vermişik, amma onlar bundan istifadə etmədilər. Biz Laçın-Xankəndi yolunun, sadəcə, “özbaşına keçid” olduğu, Ermənistanın 2021-ci ildə istehsal etdiyi minaların bu yol vasitəsilə göndərdiyi vaxtda da şans verirdik. İndi isə ölkəmiz beynəlxalq aktorlardan addım atmalarını gözləyir. Amma onların vaxtı uzatmalarının, ermənilərin tərəfində dayanmalarının nələrə gətirib çıxardığı hamıya məlumdur. Həmin aktorların bu gün də prosesi uzatması, yeni status-kvo yaratmaq istəyi onlar üçün yaxşı nəticələnməyəcək.

# Qarabağ zəfəri Zəngəzur dəhlizinin açılmasını zərurətə çevirib

## *Sərhəddə “TIR  şousu” çıxaranlar Naxçıvanın 35 illik blokadasını niyə görmürlər?*

**İkinci Qarabağ müharibəsi hərb tariximizin öyrənilməsi baxımından hələ uzun illər müzakirə olunacaq. Xüsusilə, müasir savaşların aparılması texnologiyasını ilk dəfə dünyaya təqdim edən Azərbaycan bununla dünya hərb tarixində yeni səhifələr yazdı. Qardaş Türkiyənin Baxçaşəhər Universitetinin müəllimi, terror və təhlükəsizlik üzrə ekspert Abdulla Ağarla söhbətimizin mövzusu da Qarabağ uğrunda Vətən müharibəsi və sonrakı dövrdə regionda baş verən proseslər oldu. Xatırladaq ki, II Qarabağ müharibəsinə həsr etdiyi kitabı yazmaq üçün müsahibimiz 400-ə yaxın insanla görüşüb söhbət edib.**

***– Abdulla bəy, Qarabağ savaşı Azərbaycan və Türkiyə ictimaiyyəti sizin ardıcıl təhlil və açıqlamalarınızı yaxından izləyirdi. Bu gün isə oxucularımız müharibədən sonrakı dövrə baxışınızı maraqla gözləyir.***

–Əvvəlcə qeyd etmək istərdim ki, İkinci Qarabağ savaşı illər idi ki, həllini gözləyidi. Buna görə də bu müharibə qaçılmaz idi. Müharibələr o zaman baş verir ki, hər iki tərəf üçün danışıqlar artıq heç bir nəticə vermir və son çıxış yolu kimi qarşı-qarşıya gəlmək zərurəti yaranır. Azərbaycan bu savaşda, təbii ki, dünya birliyinin də qəbul etdiyi kimi haqlı tərəf idi və 30 il öz torpaqlarını işğaldan azad etmək üçün bütün siyasi, diplomatik yollara baş vurmuşdu.

Artıq işğalçı Ermənistan müharibənin olmaması üçün heç bir yer qoymamışdı. Amma bir də bu müharibəni tezləşdirən səbəblər oldu. Xüsusilə, 2020-ci ilin iyulunda Tovuz döyüşləri zaman əfsanəvi general Polad Həşimov kimi oğulların şəhid olması Azərbaycanın səbrini daşırdı. Erməni tərəfinin bu istiqamətdə aqressiv hücumlarının əsl səbəbi Azərbaycanın bu hissədən keçən təbii qaz, neft və beynəlxalq nəqliyyat marşrutlarını nəzarət altına almaq istəyi idi. Əgər müharibə Ermənistanın və onun arxasında dayananların istədiyi kimi olsaydı, Azərbaycanın yeni torpaqları işğal ediləcəkdi.

***– Azərbaycan bu təhlükəni önləyərək müsəddəs Vətən savaşına qalxdı və ilk gündən qardaş Türkiyəni yanında gördü...***

– Tamamilə doğrudur. Buna görə də müharibənin ilk günlərində güvəndiyi dost və qardaş Türkiyə ilə birgə çox sıx siyasi və diplomatik mübarizə apardı. Prezident Rəcəb Tayyib Ərdoğanın güclü iradəsi ilə Türkiyə açıq şəkildə siyasi və mənəvi imkanları ilə Azərbaycanın yanında yer aldı. İkinci Qarabağ savaşı dünyada çox kiçik bir ərazidə yaşanan



təhlükəli bir müharibə idi. Azərbaycan misilsiz bir fədakarlıqla, qəhrəmanlıqla bu mübarizəsini başa çatdıraraq möhtəşəm bir Zəfərin altına öz imzasını qoydu.

***– Təhlükəli dedikdə, əsas nəyi nəzərdə tutursunuz?***

– Bilirsiniz, cəbhədəki Ohanyan səddi bizim indiyədək digər müharibələrdə rastlaşdığımız sadə bir maneə deyildi. Normal qaydalara görə I, II, III müdafiə istehkamları haqqında hər birimiz məlumatlıyıq. Mən müharibədən sonra o cəbhə xəttini gəzərkən ermənilərin bütün təmas xətləri boyunca çoxpilləli istehkamlar qurdugunun şahidi oldum: arda-arda qalın beton divarlar, tank əleyhinə keçilməz sədlər, əlavə xəndəklər, mina sahələri və s. Azərbaycan ordusu bu səddləri keçərkən, təbii ki, itkilər verdi. Nəzərə alaq ki, ümumi şəhid sayı 3 minə çatmışdı və bunun üçdə biri ilk iki-üç gündə olmuşdu. Deməliyəm ki, rusların ermənilərə verdikləri müasir tank əleyhinə idarəetmə sistemləri, baxmayaraq ki, döyüş zamanı onlar məhv edildi, Azərbaycan ordusunun irəliləməsinə ilk günlərdə böyük çətinliklər yaradırdı. Amma xüsusi təyinatlı qüvvələr bu sədləri yarıb keçdilər.

***– Şuşanın alınmasında isə xüsusi təyinatlılar möcüzə yaratdılar.***

– Təkcə Şuşanın alınmasında deyil. Xüsusi təyinatlılar “N” saylı korpuslarla birlikdə müxtəlif  istiqamətlərdən hücumlarda iştirak edirdilər. Bildiyiniz kimi, hələ Füzuli rayonu azad edilməmişdən əvvəl Azərbaycan İranla cənub sərhədləri boyunca ərazilərin işğalçılardan təmizlənməsi üçün strateji bir qərar qəbul etdi.  O zaman cəbhənin ön bölgələrində yerləşən xüsusi təyinatlıların da bir qismi oradan çıxarılaraq sızma hərəkatı ilə 250 kilometrlik bir sərhəd xəttini çox qısa zaman ərzində nəzarətə götürdü. Xüsusilə Cəbrayıl ərazisində tərəflərin xüsusi təyinatlıları qarşı-qarşıya gələrkən Azərbaycan igidləri böyük bir əzm, qəhrəmanlıq göstərərək düşməni darmadağın etdilər və Cəbrayıl işağldan azad olundu. Bunun ardınca Hadrut azad edildi.

Onu da deyim ki, Hadrutun ələ keçirilməsi çox möhtəşəm bir əməliyyatın nəticəsi idi. Bundan sonra da Füzuli işğalçılardan təmizləndi. Bu əməliyyatlardan sonra erməni tərəfində böyük bir ruh düşkünlüyü yarandı. Bundan sonra qarşıya qoyulan əsas vəzifə Şuşanın alınması idi. Şuşa əməliyyatı haqqında da bilirsiniz ki, xüsusi təyinatlılar burada çox böyük vəzifənin öhdəsindən gəldilər.

Şuşa əməliyyatı çox möhtəşəm bir savaş oldu. Ən əsası xüsusi təyinatlılarımız ermənilərin gözlədikləri yerdən deyil, tam əks tərəfdən – şimal-qərb tərəfdən Şuşaya girdilər və Şuşada çox güclü döyüşlər getdi, çünki ermənilərə Xankəndi istiqamətindən davamlı təminat gəlirdi. Sonda bu yolun da qarşısı kəsildi və Şuşa Azərbaycan əsgərinin tam nəzarəti altına keçdi.

Onu da deyim ki, Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun hər an savaşa hazır vəziyyətdə olması, təmas xətti boyunca silah və texnikaların döyüş hazırlığında saxlanılması da erməni tərəfinə psixoloji təsir edirdi. Qarabağ istiqamətində yola Naxçıvandan ciddi nəzarət edilməsi də ermənilərin zəiflədilməsi baxımından çox böyük əhəmiyyət daşıyırdı.

***– Müharibədən sonrakı dövrdə ermənilərin təslim aktına uyğun hərəkət etməməsi sülh prosesinə mənfi təsir edir.  Bu baxımdan Zəngəzur dəhlizinin açılmaması regionda böyük narahatlıq doğurur.***

– Zəngəzur dəhlizinin açılması Rusiya, Azərbaycan və Ermənistan liderlərinin birgə imzaladıqları bəyanatda öz əksini tapıb. Amma müharibənin qurtarmasından iki il yarım keçsə də, bu sahədə heç bir addım atılmayıb. Səbəb nədir? Səbəb çox sadədir: bu dəhliz artıq bir çox güclərin maraqlarının toqquşduğu bir əraziyə çevrilib. Halbuki dəhlizin açılması burada iştirak edən Rusiyanın da, Azərbaycanın da, Ermənistanın da, hətta İranın da xeyrinədir. Amma ortada nəyi görürük? Məsələn, İran bunu özünün qırmızı xətti kimi görür, Ermənistan hərdən bir söz deyir. Halbuki, dediyimiz kimi, buradakı ölkələrin hər biri bundan faydalana bilər.



Nəhayət, son günlərdə Qarabağda “humanitar fəlakət” adı altında haray-həşiri qoparan Ermənistan və onun himayədarları 35 ildir ki, Naxçıvanın blokadada saxlanmasını bir dəfə də dillərinə gətirməyiblər. Qarabağ zəfəri  Zəngəzur dəhlizinin açılmasını zərurətə çevirib. Sərhəddə “TIR  şousu” çıxaranlar bəs Naxçıvanın blokadasının hələ də davam etməsini niyə görmürlər? Zəngəzur dəhlizinin açılmasının heç bir əsas olmadan ləngidilməsi dünyadakı ən böyük haqsızlıqlardan biridir. Lakin bu yolda hərəkətin bərpası zamanı gəlib çatmışdır.

Eyni zamanda, bu layihə Çinin və digər Avropa ölkələrinin də marağındadır və hər biri də bundan yararlanmaq istəyir. Bir şeyi unutmayaq ki, Zəngəzur dəhlizi Azərbaycan və Türkiyənin haqqıdır. Biz bu haqqımızdan istifadə edəcəyik, istər barışla, istərsə də güclə. Bu dəhlizin açılması ilə Naxçıvanın təhlükəsizliyi də diqqət mərkəzində olacaq. Yəni bu, artıq iqtisadi maraqlar üzərində formalaşan zərurətə çevriləcək.

***– Siz Qarabağ müharibəsi ilə bağlı zəngin material da toplamısınız.***

– Bəli, mən artıq II Qarabağ müharibəsindən bəhs edən kitabımın üzərində çalışıram. Buna ilyarım vaxtımı sərf etmişəm. Bu kitabı yazmaq üçün birbaşa savaşın içində olan yüzlərlə insanla görüşüb söhbət etmişəm. Bu söhbətlərdə başda Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Kərim Vəliyev, xüsusi təyinatlıların komandanı Hikmət Mirzəyev, eləcə də digər korpus və ayrı-ayrı hərbi birləşmələrin komandirləri olmaqla, çox sayda zabit və əsgərlər iştirak ediblər. Hazırda yazdığım material 1500 səhifədir, bəlkə də, yekunlaşınca 2 min səhifəyə çata bilər. Və bir şeyi də deyim ki, dünyada heç bir müharibə ilə bağlı bu həcmdə və səviyyədə kitab yazılmayıb və bu kitabın Azərbaycana həsr olunmasının mənim üçün ayrı bir önəmi vardır. Şükürlər olsun ki, Allah mənə belə bir iş görməyi nəsib etdi.

***– Kitabın adı necə olacaq? Çox maraqlı gəldi mənim üçün...***

Kitabın adını “Qarabağ dastanı” qoymuşam, “Qarabağ savaşı” da ola bilər. İşlər yekunlaşandan sonra adını da tam dəqiqləşdirəcəyik.

**– Abdulla bəy, sizə ugurlar arzulayırıq, kitabınızın da tezliklə işıq üzü görməsini səbirsizliklə gözləyirik.**

***Səbuhi HƏSƏNOV,***
***“Xalq qəzeti”***

**Naxçıvan – Ankara – Naxçıvan**

# Dövlət əhəmiyyətli xüsusi tapşırıq



**(əvvəli qəzetin 2, 3, 4 avqust 2023-cü il tarixli saylarında)**

Keçən əsrin ortalarında atamla qohumu Qurban Abbasov Payız kəndindən Bakı şəhərinə gedirlər. Atam Mərdəkanda milis məktəbinə daxil olur, Qurban Abbasov isə neft mədənlərində əmək fəaliyyətinə başlayır. Sonralar Qurban Abbasov nəinki sovet məkanında, hətta dünyada tanınmış neftçi olur. Atam milis məktəbini hüquqşünas kimi bitirdikdən sonra, Naxçıvanda daxili işlər orqanlarına göndərilir. Dediyinə görə, o zaman şəhər milis idarəsində işləyən ermənilər çox narahat olmuşdular. “Biz burada acından ölürük, Əlican, gəl sənə on baş qoyun alaq, get kəndinə”, – deyərək ona söz atırdılar. Atam onları çox yaxşı tanıyırdı. Atası Kərbəlaya getmişdi. Cəhri kəndində yaşayan anasının dayısı Kərbəlayı Kərim isə dövrünün ən igid adamlarından biri olmuşdu. Naxçıvanı qoruyan, erməniyə qan udduran bir qəhrəman kimi sevilirdi.



On bir il bundan öncə “Şərq qapısı” qəzetinin keçmiş baş redaktoru Akif Axundov mənə telefon açıb görüşmək istədiyini bildirmişdi. Görüş zamanı XX əsrin əvvəllərində Naxçıvana Türkiyədən gəlmiş bir zabit haqqında məlumat toplayıb kitab yazmaq istədiyini söylədi, amma kifayət qədər məlumat olmadığı üçün ona kömək göstərməyimi xahiş etdi. Söhbət Veysəl Ünüvardan gedirdi. Naxçıvanda hərbi attaşe kimi çalışan Mehmet albaya müraciət etdim. On gün sonra Mehmet albay mənə 1948-ci ildə general Veysəl Ünüvarın yazdığı “İstiklal harbində bolşeviklərlə sekiz ay (1920-1921)” kitabını verdi. Kitabın 31-ci səhifəsində general Kərbalayı Kərimdən bəhs edirdi. Kitabı atama göstərəndə gözləri dolmuşdu. Kitab Naxçıvanda yenidən nəşr olundu. Türkiyənin Naxçıvandakı baş konsulu mənə məktub göndərdi:

**19 mayıs 2006**

**Sayın Urfullah Gurbanov!**

1920-1921 yılları arasında Nahçıvan türklerinin Kazım Karabekir paşaya bağlı Şark Cephesi Komutanlığına bağlı Binbaşı Veysel Ünüvar komutasındaki türk askerleriyle birlikte ermenilere karşı verdikleri kahramanca mücadele 1948 yılında Veysel Ünüvar paşa tarafından “İstiklal harbinde bolşeviklerle sekiz ay (1920-1921)” adıyla bir kitap haline getirilmiştir.

1920-1921 yıllarında ermenilere karşı verilen mücadelenin özellikle genç nesillerin dikkatine getirilmesi ve atalarımızın dönemin zor şartlarında verdikleri kahramanca mücadelenin daha iyi anlaşılması açısından sözkonusu eser, doğumunun 125 yıldönümü münasebetiyle büyük önder Atatürke ithafen filoloji ilimleri doktoru Ebülfez Güliyevin çok değerli katkılarıyla Azerbaycan türkçesine çevrilmiş olup, ekte sunulmaktadır.

Azerbaycan ve Türkiye cumhuriyetlerinin bağımsızlıklarını ebediyete kadar koruması dileğiyle saygılarımı sunarım.

**İ.Sefa YÜCEER,**
**Başkonsolos**

1918-ci ilin noyabrından 1919-cu ilin martınadək fəaliyyət göstərmiş Araz Türk Cümhuriyyətinin 20 taboru var idi. Onlardan birinə Kərbəlayı Kərim rəhbərlik edirdi. Atam bizim Aslanlı tayfasının davamçıları olduğumuzu deyirdi. İkinci Dünya müharibəsində bir nəsildən 17 nəfər qohumumuz geri qayıtmamışdı. Onlardan biri hətta polkovnik rütbəsinədək yüksəlmişdi. 20 Yanvar hadisəsindən sonra atamda Sovet hökumətinə qarşı nifrət hissi yaranmışdı. Otuz iki il daxili işlər orqanlarında fəaliyyətdən təqaüdə çıxandan sonra atam fabrikdə mülki müdafiə şöbəsinin rəisi işləyirdi. Uşaqlıqdan atam bizə birgə kəsilən çörəyə, dostluğa sədaqətli olmağı öyrətmişdi.

Bir dəfə yenə də uzaq qohumlarından biri mənə Heydər Əliyevin təhlükəsizliyi ilə bağlı narahatlığını bildirdi. Əlbəttə, başqasına da deyə bilərdi, lakin mənə etimad edirdi. Axı biz dost idik. Təbii ki, qısa zamanda bütün təhlükəsizlik tədbirlərini həyata keçirdim. Yaranmış vəziyyət bizdən daha diqqətli olmağı tələb edirdi. Ertəsi gün gecə Heydər Əliyevin yaşadığı evi mühafizə edən əsgərlərimizi yoxlamağa gedəndə növbətçilərdən üç metr aralı atılmış “Belomor kanal” papirosunun qutusu gözümdən yayınmadı. Növbətçilərin ayaqlarının altında isə siqaret kötüklərini gördüm. Dərhal növbətçiləri dəyişdirdim. Elman bəylə görüşərək tam fərqli kriteriyalarla növbətçilərin seçilib posta göndərilməsini razılaşdırdıq. Heydər Əliyevin yolunda biz canımızdan keçməyə hazır idik. Bu, gəlişigözəl deyilmiş bir ifadə deyildi. Ümumiyyətlə, Heydər Əliyevi bütün xalq, Naxçıvan əhalisi qoruyurdu.

Heydər Əliyevlə görüş zamanı ruslara aid hərbi hissələrdən nəinki müsəlman əsgərlərini, hətta xeyli rus əsgərini evlərinə göndərdiyimizi bildirdim. Mənə dedi ki, burada xeyli ukraynalı əsgər və zabit var, bu yaxınlarda Ukraynadan bir təyyarə gələcək, tezliklə onları da buradan köçürəcəyik.

Nəhayət ki, Goranboya planlaşdırdığım səfər baş tutdu. Goranboy Azərbaycanın ən şiddətli döyüşlərin getdiyi rayonlarından biri idi. Sədərəyi “Naxçıvanın qapısı” hesab etdiyimiz kimi, Goranboyu da “Gəncəbasarın qapısı” adlandırmaq olar. Goranboylular Vətənin müdafiəsində mətin dayanmışdılar. Şəhidlər vermiş, lakin bir qarış torpağı düşmənə təslim etməmişdilər. İcra başçısının qəbul otağında gözləri dolmuş yaşlı analarla bərabər, hərbçilər və məmurlar da var idi. Hamı tələsirdi. Pıçıltılardan tezliklə problemlərin həll ediləcəyinə ümidlər hiss olunurdu.

Köməkçiyə Naxçıvandan gəldiyimi bildirdim. O, qəbulda bir qrup vətəndaş olduğunu, onlardan sonra başçının məni qəbul edəcəyini bildirdi. İrşad Əliyev məni gözlədiyimdən daha çox səmimiyyətlə, doğma qardaşı kimi qarşıladı. İlk diqqətimi cəlb edən İrşad müəllimin hərbi formada olması idi. Özümü təqdim etdim, vəsiqəmi göstərdim. Naxçıvandakı ağır iqtisadi və hərbi vəziyyətdən ətraflı danışdım. Hərbi ehtiyaclarımızdan söz açıb ondan kömək istədim. Bilirdim ki, onların da ehtiyacları var, amma İrşad müəllim bizə kömək edəcəyinə söz verdi.

O dövr üçün ən zəruri ehtiyaclarımızın təxirəsalınmadan ödənilməsinə göstəriş verdi. Ən kritik günlərdə gəldiyim zaman da məni əliboş qaytarmadı. Gecəni qonaq evində qalmağımı təklif etdi. Mən tabora getmək istədiyimi bildirdim. Qərargahda tabor komandiri Rasim Ağayevlə (Azərbaycanın Milli Qəhrəmanı) görüşdüm. Çox yorğun və yuxusuz olmasına baxmayaraq, onunla xeyli söhbət etdik. Məni ən çox ermənilərin döyüş taktikaları maraqlandırırdı. Burada xaricdən gəlmiş muzdlular da bizə qarşı döyüşürdülər. Sonralar Goranboyda Fəxrəddin Məmmədovla tanış oldum. Çox vətənpərvər bir insan idi. Bizə xeyli kömək etdi. Ertəsi gün yük dolu iki “Kamaz” və bir ədəd zirehli texnika ilə Gəncəyə doğru yola çıxdıq.

Aeroporta yenicə daxil olmuşdum ki, uçuş zolağının yanında üç əsgər və bir podpolkovnik gözümdən yayınmadı. Əllərində iki yeşik və bir dolaq naqil var idi. Hər şey aydın idi, burada minalama işləri aparırdılar. “Siz burada nə işlə məşğulsunuz?” – deyə soruşdum. Özlərini itirdilər. Əsgərlərdən birinin silahını aldım. Yeşiklərdə minalar var idi. “Hər birinizə bir mina bağlayıb partladacağam” – dedim. Onlarla çox sərt danışdım. Aeroportun yerüstü qurğularına xeyli ziyan vurmuşdular. Aeroportun rəhbərliyini ayağa qaldırdım. Şəhər rəhbərliyini, hüquq-mühafizə orqanlarının rəhbərlərini vəziyyətlə bağlı məlumatlandırdım. Təxirəsalınmaz tədbir kimi tabeliyimdə olan əsgərlərimi vəziyyət sabitləşənə kimi aeroportun mühafizəsinə cəlb etdim. Böyük bir təxribatın qarşısı alındı.

O vaxt ekstremist ruhlu bir neçə rus hərbçisinin, bu yaxınlarda Gürcüstana bir yük maşını aparacaqları barədə məlumat aldıq. Deyilən gün şəhərdən təxminən, 5 km aralı yük maşınının qarşısını kəsdik. Maşını əllərindən alıb onları yolda boş buraxdıq. Yük maşınını aeroporta gətirdik. Rusların ermənilərə satmaq istədikləri 2 ədəd 100 mm çaplı top və hərbi gəmidən sökdükləri “Zenit” qurğusu artıq Naxçıvana gedəcəkdi. Üç gün əvvəl Naxçıvanda Heydər Əliyevlə danışanda ona böyük bir yük təyyarəsinə ehtiyacım olduğunu bildirmişdim. Təyyarə ertəsi günü Özbəkistandan gəlməli idi.

Gəncədə şəhərin mərkəzində “Xalça” firması fəaliyyət göstərirdi. Firmanın direktoru Nəsrəddin Əliyev qeyrətli, vətənpərvər bir iş adamı idi. Nəsrəddin müəllimlə söhbət zamanı özü mənə kömək etmək istədiyini bildirdi. Vaxt itirə bilməzdim. Çünki yükümüz həm çox, həm də ağır idi. Hər bir mərminin çəkisi 100 kq olardı. Sabah bunu yükləmək üçün köməyə ehtiyacımız vardı.

Kömək üçün Gəncə Şəhər Polis İdarəsinin rəisi polkovnik Eldar Həsənovla görüşdüm. Sabah 30 nəfər yanğınsöndürən mənim sərəncamıma verildi. Söhbət zamanı Eldar müəllim Kəlbəcərə kömək etdiyini bildirdi. Ruslardan bir ədəd 100 mm-lik top mərmisini 8000 manata, avtomat patronlarının birini isə 20-30 manata aldıqlarını dedi. Daşkəsən rayon prokuroru, əslən kəlbəcərli Nəbi Quliyevin mənə kömək üçün müraciət etdiyini ona demədim. Elşən Əliyevlə Nəbi müəllimin evində olmuşduq. Çox narahat idi. Elşənlə ona kömək etdik, lakin bizim yardımımız kifayət qədər deyildi. Səhər açılmışdı. Yusifə “məni aeroporta sən aparacaqsan” dedim. Yenicə zala daxil olmuşdum ki, milis starşinası Nəbi Eyyubov mənə yaxınlaşdı. Onunla, qardaşları Eyyub və Bəylərlə (hazırda Azərbaycan Prezidentinin şəxsi mühafizəsinin rəisidir) yaxın münasibətim var idi. Nəbi mənə Heydər Əliyevin Özbəkistanda Etibar adlı bir şəxsə yük təyyarəsi ilə bağlı zəng etdiyini dedi. Bu gün təyyarənin gələcəyini bildirdi. Az sonra Eyyub müəllim da gəldi. Üçlükdə çay içib təyyarəni gözləməyə başladıq.

Eyyub müəllim mənim xətrimi çox istəyirdi. Hər gün olmasa da, günaşırı görüşürdük. “Həmişə təhlükədəsən” deyərək məni mehmanxanada gecələməyə qoymazdı. Beşmərtəbəli binanın birinci mərtəbəsində darısqal mənzildə yaşayırdılar. “Etibar da gələcək?” – deyə Eyyub müəllimdən soruşdum. “Xeyr” – deyə cavab verdi. Aydın məsələ idi ki, bu cür böyük təyyarələri ruslar idarə edirdilər. Tədbirli olmalı idik. Az sonra bir təyyarə endi. Bu, bizim gözlədiyimiz deyildi. Aeroportun şöbə rəisi mənə yaxınlaşdı. Aeroportun komandiri Firudin Qasımov mənimlə görüşmək istəyirdi. Kabinetdə heyət üzvləri və bir qadın vardı. Yanacaq doldurmaq üçün eniş etmişdilər. Təyyarə Kiyevdən gəlmişdi. Bu təyyarə ukraynalı əsgər və zabitləri Naxçıvandan evlərinə aparacaqdı. Qadın özünü təqdim etdi: Rimma Nikolayevna. Ukrayna Radasında əsgər və zabitlərin hüquqlarının müdafiə komissiyasının rəhbəri idi. Mənə Heydər Əliyevlə görüşmək istədiyini bildirdi. “Problem yoxdur” – dedim. Onları Naxçıvana yola saldıq. Naxçıvana uçan təyyarə geri qayıtmışdı. Gələnlərin arasında Telman Sadıqovu gördüm. Yarası qismən sağalmışdı. Telman müəllim Naxçıvan Ali Məclisinin deputatı idi. Sonralar Şahbuz rayonunun icra başçısı oldu. Telman müəllimlə səmimi görüşdük. Vəziyyətlə maraqlandı. Saat 14 radələrində gözlədiyimiz təyyarə endi. Öncə iki texnikanı, sonra topları, ”Zenit” qurğusunu, 100 ədəd mərmini və s. yüklədik. Telman müəllim də 100 kq-lıq mərmiləri yükləyəndə bizə kömək etdi.

Eyyub müəllimlə mən təyyarəyə daxil olduq. Kabinəsi ikimərtəbəli idi. Eyyub müəllimə “Siz ikinci mərtəbəyə qalxın, mən birinci mərtəbədə olacağam” – dedim. Əlavə etdim ki, qeyri-adi bir vəziyyətlə qarşılaşsan dərhal mənə xəbər ver. Təxminən, 20 dəqiqə sonra biz Ermənistanın hava məkanına daxil olmuşduq ki, Eyyub müəllim aşağı endi. Təyyarə komandiri yanacağın tezliklə qurtaracağı üçün İrəvana məcburi eniş edəcəklərini demişdi. Eyyub müəllimə yuxarı qalxmağı və bir daha enməməyi tapşırdım. Ona dedim ki, komandirə təyyarənin partladılacağını çatdırsın. Aşağı kabinədəki ruslar nədən söhbət etdiyimizi başa düşmürdülər. Hansı suprizlə qarşılaşacaqlarını heç ağıllarına belə gətirməzdilər. Eyyub müəllim yuxarı qalxan kimi kəmərimin altından tank əleyhinə qumbaranı çıxaranda rusların rəngi sapsarı oldu. “Əgər hiss eləsəm ki, təyyarə bir metr aşağı enir özümü də, sizi də məhv edəcəyəm” – deyib onların gözü önündə qoruyucunu çəkib çıxardım. Kabinədən çıxıb mərmilərin yanında mövqe tutdum. Zabitlərdən biri dərhal yuxarı qalxdı. Sonralar Eyyub müəllim komandirə “o partladar” – deyəndə komandirin onu necə dilə tutmasından danışmışdı. Komandir ona psixoloji təsir göstərmişdi. Ya yanacaq qurtaracaq, təyyarə göydən yerə düşəcək, ya da yoldaşın partladacaq. Hər iki halda biz öləcəyik. Lakin Eyyub müəllim aşağı enməmişdi. Komandir təslim olmuşdu. Yarım saat sonra təyyarə Naxçıvanda eniş etdi. Eyyub müəllim aşağı düşərək dedi ki, hər şey qaydasındadır. Hamı mənə baxırdı. Qumbaraya işarə edib hamının çölə çıxmasını istədim. Qumbaranı əvvəlki halına gətirdim. Yarım saat idi ki, barmaqlarım bir-birinə möhkəm kilidlənmişdi. Bu müddət ərzində ürəyimdən keçənləri, düşüncələrimi ifadə edə bilmirəm.

Vaxt itirmədən Sədərəyə getdim. Məni idman (xüsusi təyinatlı) bölüyünün komandiri Səfər və İbrahim qarşıladılar. Onlarla birlikdə əsgərlərimizi yoxlamaq üçün səngərlərə qalxdıq. Şiddətli döyüşlər gedirdi. Güllələr yağış kimi yağırdı. Səngərdə bir əsgərimizin rahatsızlığı gözümdən yayınmadı. Onun avtomatını aldım, maqazini yoxladım, patronların hamısı yerində idi. Ayağa qalxdım. Səngərdən yarım metr hündürdə idim. Atəş açıb maqazini boşaltdım. Əsgərə mənim etdiyimi təkrar etməməyi tapşırdım. Əsgər ürəklənmişdi. Yoldaşları kimi artıq atəş açmağa başlamışdı. İdman bölüyünün əsgərlərinə 100 ədəd gətirdiym F-1 qumbaralarını payladım. Bu, onlar üçün ən böyük sovqat idi. İki saata qədər müşahidə və yoxlamalar apardıqdan sonra aşağı endim.

Kənddə Adil Kazımov və Vaqif Məmmədovla görüşdüm. Vaqif müəllim evini OMON-a qərargah kimi istifadə etməyə vermişdi. Komandirləri Azər Məmmədov idi. Ukraynanın Donetsk şəhərində Ali Siyasi Hərbi Məktəbi bitirmişdi. Döyüşçülər arasında “OMON Azər” kimi tanınırdı. Əfqanıstanda xidmət etmişdi. Malik Qalabəyov, Cavanşir Cəfərov, Səxavət Rzayev, Şücaət Qasımov, Ceyhun Abbasov və başqaları qəhrəman döyüşçülər idi. XTMD-yə qəbul Naxçıvan Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilirdi. Hərbi xidmət keçmiş, fiziki cəhətdən güclü, vətənpərvər gənclər qəbul olunurdu. Ona görə də orada nizam-intizam çox yüksək səviyyədə idi. Sonralar ara sakitləşəndən sonra 1993-cü ildə Azər Məmmədov Heydər Əliyevin mühafizə xidmətinə cəlb olundu. Heydər Əliyevin Bakı şəhərinə qayıdışında, Gəncəyə səfəri zamanı Azərin onu müşayiət etməsi təsadüfi deyildi. Naxçıvan XTMD-nin fəaliyyəti kifayət qədər tədqiq olunmayıb. Onun haqqında hələ çox yazılacaq.

Axşam Elman Abbasovla yaranmış vəziyyəti müzakirə etdik. Sabah da Sədərəkdə qalacağımı bildirdim. Bir aylıq müşahidədən sonra düşmənin hansı silahlardan, texnikalardan istifadə etməsi, o cümlədən, canlı qüvvəsi haqqında son məlumatları bildirdim. May ayı döyüşlərin ən şiddətli, çox şəhid verdiyimiz bir ay idi. Bu ay xüsusilə Naxçıvan üçün yaddaqalan tarixdir. İki gün sonra “Ümid” körpüsünün açılışı olacaqdı. Türkiyənin Baş naziri Süleyman Dəmirəl Naxçıvana gələcəkdi. Sovetlər Birliyi zamanı heç kəsin ağlına gəlməzdi ki, Araz çayı üzərində tikilən körpü Naxçıvanla Türkiyəni birləşdirəcək.

Burada Mustafa Kamal Atatürkü saygı və sevgi ilə yad etməmək mümkün deyildi. Onun dövründə Türkiyə ağır iqtisadi böhran yaşayırdı, güclü İstiqlal savaşı aparılırdı. Mustafa Kamal İran dövlətindən 11 km bu ərazini ona görə alır ki, vaxt gələcək bizim Naxçıvanla gediş-gəlişimiz olsun. Sanki tarix təkrarlanırdı. Ulu öndərimiz çox uzaqgörən idi. Bütün təhlükəsizlik tədbirləri görülürdü ki, tədbir yüksək səviyyədə keçsin. Naxçıvan əhalisi qonaqları qarşılamağa hazır idi. Bundan xeyli əvvəl Kamal Yılmaz paşa Naxçıvana ziyarətə gəlmişdi.

“Ümid” körpüsünün açılışı çox yüksək səviyyədə, təhlükəsizlik şəraitində keçirildi. Tək Naxçıvan əhalisinin deyil, bütün Azərbaycan xalqının həsrətlə gözlədiyi Heydər Əliyev – Süleyman Dəmirəl görüşü baş tutdu. Gələcəyə böyük inam, ümid qığılcımları doğdu. Dünya mətbuatı bu görüşdən yazdı. Bu görüş qədim türk yurdu olan Naxçıvanın haqq savaşında düşmənə yalqız olmadığını göstərdi.

**(ardı var)**

***Urfullah QURBANOV,***
***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 264** **Bakı şəhəri, 4 avqust 2023-cü il**

***"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299, № 8, maddə 550, № 10, maddə 639; 1999, № 2, maddə 150; 2000, № 5, maddə 374, № 7, maddə 559, № 8 (III kitab), maddə 643, № 9, maddələr 690, 699, 700, № 10, maddə 770; 2001, № 3, maddə 217, № 4, maddə 289, № 8, maddə 561; 2002, № 4 (II kitab), maddələr 209, 212; 2005, № 1, maddə 56; 2006, № 2, maddə 180, № 4, maddə 367, № 7, maddə 652; 2008, № 7, maddələr 672, 687; 2009, № 9, maddələr 742, 744, № 12, maddələr 1061, 1071; 2010, № 7, maddə 706, № 12, maddə 1114; 2011, № 1, maddə 68, № 8, maddə 774; 2012, № 1, maddə 39, № 7, maddə 779, № 10, maddə 1020; 2013, № 11, maddə 1458; 2014, № 4, maddə 456; 2015, № 7, maddə 895; 2016, № 4, maddə 801, № 8, maddələr 1432, 1460, № 12, maddə 2213; 2017, № 2, maddə 312, № 6, maddə 1242, № 8, maddə 1625; 2018, № 4, maddə 826; 2019, № 1, maddə 154, № 5, maddə 947, № 8, maddə 1468; 2020, № 2, maddə 220; 2021, № 1, maddə 89, № 2, maddə 203, № 6 (IV kitab), maddə 680, № 11, maddələr 1256, 1260; 2022, № 1, maddə 85, № 4, maddələr 390, 406, № 12, maddə 1548; 2023, № 2, maddə 318; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 iyul tarixli 223 nömrəli Qərarı) aşağıdakı məzmunda 4.30-1-ci bənd əlavə edilsin:

"4.30-1. Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar – 2023-cü il yanvarın 1-dən 2 il müddətinə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 265** **Bakı şəhəri, 4 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısının təsdiq edilməsi barədə" 2001-ci il 4 yanvar tarixli 4 nömrəli, "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 3 iyun tarixli 211 nömrəli, "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli və "Elektron qaimə-fakturanın formasının, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 mart tarixli 89 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2021-ci il 2 fevral tarixli 26 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53; 2002, № 10, maddə 635; 2003, № 6, maddə 342; 2008, № 8, maddə 787; 2010, № 3, maddə 264, № 6, maddə 569; 2013, № 10, maddə 1200; 2016, № 9, maddə 1585, № 11, maddə 1976; 2019, № 3, maddə 513, № 7, maddə 1319; 2021, № 3, maddə 282, № 4, maddə 405, № 10, maddə 1159, № 12, maddə 1535; 2022, № 8, maddə 1021) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.11-ci bəndin birinci abzasında "və arvadları (ərləri)" sözləri ", arvadları (ərləri) və övladları" sözləri ilə əvəz edilsin;

1.2. 1.15-ci bəndin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.16-cı bənd əlavə edilsin:

"1.16. şəhid ailəsi statusu verilmiş şəxslərin valideynləri, dul arvadları (ərləri) və övladları:

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumları tərəfindən verilən şəhid ailəsi statusunu təsdiq edən vəsiqə.".

**2.** "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784; 2016, № 3, maddə 616, № 4, maddə 775; 2017, № 9, maddə 1727; 2018, № 6, maddə 1371; 2021, № 4, maddə 417, № 9, maddələr 1063, 1067) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və ikinci abzasında "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin" sözləri "Qeyri-rezidentlərin" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası" üzrə:

2.2.1. adında və 1.1-ci bənddə "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin" sözləri "Qeyri-rezidentlərin" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.1-ci bənddə "xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin" sözləri "qeyri-rezidentlərin" sözləri ilə əvəz edilsin;

2.2.3. aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

"1.1-1. Bu Qaydaların məqsədləri üçün qeyri-rezident dedikdə xarici dövlətin qanunvericiliyinə uyğun olaraq vergi məqsədləri üçün rezident hesab edilən həmin xarici dövlətin hüquqi və fiziki şəxsi, o cümlədən ABŞ şəxsi (bundan sonra - xarici dövlətlərin hüquqi və fiziki şəxsləri) başa düşülür.";

2.2.4. 1.6-cı bəndin birinci cümləsində "fiziki və ya hüquqi" sözləri "hüquqi və ya fiziki" sözləri ilə, 4-cü hissəsində "fiziki və hüquqi" sözləri "hüquqi və fiziki" sözləri ilə əvəz edilsin;

2.2.5. həmin Qaydaya 1 və 2 nömrəli əlavələrin yuxarı sağ küncündə "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin" sözləri "Qeyri-rezidentlərin" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 may tarixli 170 nömrəli, 11 iyul tarixli 226 nömrəli və 19 iyul tarixli 233 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 1.4.3.4.9.4-cü yarımmaddəsinə "Kredit təşkilatlarına" sözlərindən sonra ", bank əməliyyatlarını aparan şəxslərə" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 191; 2022, № 4, maddə 398, № 8, maddə 1026) ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın 1.4.4-cü yarımbəndində nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.4.5-ci yarımbənd əlavə edilsin:

"1.4.5. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına vəkillər və vəkil qurumları tərəfindən edilən ödənişlər üzrə.".

**5.** Bu Qərarın 3-cü hissəsi 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 266** **Bakı şəhəri, 4 avqust 2023-cü il**

***"Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 128 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 760-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 128 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 694; 2019, № 3, maddə 561) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə 3-cü hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin;

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydası" üzrə:

1.2.1. 1.4.1-ci yarımbəndə birinci halda "sahə mülkiyyətçiləri" sözlərindən sonra "və Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 29.5-ci maddəsinin birinci cümləsində müəyyən edilmiş kirayəçiləri (bundan sonra-kirayəçi)" sözləri, ikinci və üçüncü hallarda ismin müvafiq hallarında "sahə mülkiyyətçiləri" sözlərindən sonra ismin müvafiq hallarında "və kirayəçilər" sözləri əlavə edilsin;

1.2.2. 2.3-cü bəndin birinci cümləsinə "sahə mülkiyyətçisi" sözlərindən sonra "və kirayəçisi" sözləri əlavə edilsin;

1.2.3. 2.10-cu bəndə "sahə mülkiyyətçilərinin," sözlərindən sonra "kirayəçilərin," sözü əlavə edilsin;

1.2.4. 4.7-ci bəndə ismin müvafiq hallarında "sahə mülkiyyətçiləri" sözlərindən sonra ismin müvafiq hallarında "və kirayəçilər" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Koordinasiya Komissiyasının iclası

**Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının iclası keçirilib. Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.**



Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti 2022-ci il sentyabrın 24-də Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında Sərəncam imzalayıb. Bu il iyulun 18-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Komissiyanın Əsasnaməsi təsdiq olunub. Əsasnamədə Komissiyanın fəaliyyət istiqamətləri, hüquq və vəzifələri, fəaliyyətinin təşkili əksini tapıb.

Bununla bağlı, Komissiyanın ilk iclasında Baş nazirin müavini, Komissiyanın sədri Şahin Mustafayev Sərəncamın icrası ilə bağlı qarşıda duran vəzifələr və görüləcək işlər barədə çıxış edib. Prezidentin Sərəncamının əhəmiyyəti vurğulanıb, bu barədə mövcud vəziyyətin təhlili şərhi verilib, ölkədə təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində müvafiq institusional sistemin yaradıldığı, normativ hüquqi baza formalaşdırıldığı və bu istiqamətdə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları tərəfindən nəzarətin və tənzimləmənin həyata keçirildiyi qeyd edilib.

Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarı zamanı mümkün qəzaların qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin görülməsinə, gələcək risklərin proqnozlaşdırılması sahəsində mütəmadi təhlillərin yerinə yetirilməsinə, xüsusən də bu istiqamətdə aidiyyəti dövlət qurumları arasında operativ və səmərəli məlumat mübadiləsinin aparılmasına, onların fəaliyyətinin əlaqələndirilməsinə, habelə burada səmərəli planlaşdırmanın və koordinasiya işinin təşkilinə böyük ehtiyacın olduğu bildirilib.

Bütün bunlardan irəli gələrək, Komissiya qarşısında duran vəzifələrin, səmərəli koordinasiyasının təşkili, cari və növbəti illər üzrə onun iş planının hazırlanması, Təhlükə potensiallı obyektlərin Elektron Məlumat Bazasının (portalının) yaradılması, ilkin qəbul edilməsi zəruri olan texniki reqlamentlər və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, mövcud normativ hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı, habelə görüləcək digər işlər barədə aidiyyəti üzrə tapşırıqlar verilib.

İclasda, həmçinin təşkilati məsələlərə baxılıb, Komissiya Katibliyinin tərkibi təqdim olunub, Komissiyanın fəaliyyət istiqamətlərinə aid sahələr - "Təhlükə potensiallı obyektlərdə keçirilən monitorinqlərin nəticələrinin təhlili və qiymətləndirilməsi", "Texniki reqlamentlərin müəyyən olunması istiqamətində fəaliyyətin əlaqələndirilməsi" və "Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarı sahəsində mövcud normativ hüquqi aktların təhlili və təkmilləşdirilməsi" üzrə mütəxəssislərdən ibarət işçi qrupların tərkibi təsdiq olunmuş və digər məsələlər müzakirə edilib.

***"Xalq qəzeti"***

# Milli Məclis Sədrinin Gürcüstan parlamenti sədrinə başsağlığı

**Avqustun 5-də Milli Məclisin sədri Sahibə Qafarova Gürcüstanın Raça dağlıq bölgəsində baş vermiş torpaq sürüşməsi nəticəsində insan tələfatı ilə əlaqədar Gürcüstan parlamentinin sədri Şalva Papuaşviliyə başsağlığı məktubu göndərib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, məktubda Milli Məclisin sədri bu ağır faciə ilə əlaqədar gürcüstanlı həmkarına, həlak olanların ailələrinə və yaxınlarına, dost Gürcüstan xalqına öz adından və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri adından dərin hüznlə başsağlığı verib, təbii fəlakətin ağır nəticələrinin tezliklə aradan qaldırılması diləklərini ifadə edib.

***"Xalq qəzeti"***

# Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın təmin edilməsi diqqət mərkəzindədir

**Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun rəhbərliyi ilə ölkəmizdə fəaliyyət göstərən apellyasiya instansiya məhkəmələri, habelə Bakı və Sumqayıt şəhərlərində yerləşən ixtisaslaşmış və rayon (şəhər) məhkəmələrinin sədrləri ilə görüş keçirilib.**



Məhkəmə-Hüquq Şurasından verilən məlumata görə, görüşdə İnam Kərimov çıxışında məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən islahatları diqqətə çatdırıb, ədalət mühakiməsinin səmərəliliyinin artırılması və məhkəmə-hüquq sisteminin yeni çağırışlara uyğun inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb.

Bildirilib ki, yeni tərkibdə fəaliyyətə başlayan Məhkəmə-Hüquq Şurası artıq qısa müddətdə müxtəlif istiqamətlərdə, o cümlədən, hakimlərin seçim prosesinin sadələşdirilməsi, onların fəaliyyətinin qiymətləndirilməsi və digər sahələrdə konkret hədəflər müəyyənləşdirilib.

Eyni zamanda, məhkəmə sistemində korrupsiyaya şərait yaradan hallara qarşı xüsusi qətiyyət göstəriləcəyi, vətəndaşlarda haqlı narazılıq doğuran mənfi hallar üzrə təsir tədbirlərinin bundan sonra da həyata keçiriləcəyi diqqətə çatdırılıb. Məhkəmələrdə şəffaflığın təmin olunması ilə bağlı məhkəmə sədrlərinin üzərinə düşən vəzifələr qeyd edilib.

Görüşdə, həmçinin digər mövzular ətrafında müzakirələr aparılıb.

***"Xalq qəzeti"***



# Torpaq xidmətlərinin yeni tarifləri

**Tarif (Qiymət) Şurasının daşınmaz əmlakın qeydiyyatı, texniki inventarlaşdırılması və kadastrı xidmətlərinin tariflərinin tənzimlənməsi barədə qəbul etdiyi qərara əsasən, ölkəmizdə torpaq sahəsinin planı və ölçüsünün hazırlanması üzrə yeni xidmət tarifləri müəyyən olunub.**

Yeni tariflərə əsasən, kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə 5 manat, yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin) torpaqları üzrə 30 manat, digər torpaq sahələri (sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar, xüsusi qorunan ərazilərin torpaqları, meşə və su fondu torpaqları, ehtiyat fondu torpaqları) üzrə 50 manat tarif müəyyənləşdirilib.

Tarif (qiymət) Şurasının iclasında daşınmaz əmlak sahəsində göstərilən digər xidmətlər üzrə də tariflər təsdiq edilib. Bunlar torpaq tədqiqatlarının aparılması, xəritələşdirilməsi və sifarişçiyə təqdim edilməsi, texniki kadastr və yerquruluşu məlumatlarının, həmçinin sənədlərinin (arxiv arayışları, texniki sənədlərin təsdiq edilmiş surəti) verilməsi, sxematik ünvan planlarının tərtibi ilə bağlıdır.

***"Xalq qəzeti"***

# Azərbaycan qazı Bolqarıstanda “mavi yanacağ”ı ucuzlaşdırıb



**Bolqarıstanın Enerji və Su Resurslarını Tənzimləmə Komissiyası avqust ayı üçün təbii qazın qiymətini çıxış imkanı, ötürmə, aksiz və ƏDV xərcləri istisna olmaqla, bir meqavatt-saat üçün 59,67 lev səviyyəsində təsdiqləyib.**

Tənzimləyici orqan daxili bazar üçün lazımi qazın iki fərqli tədarük mənbəyi hesabına təmin olunduğunu müəyyənləşdirib. Avqust ayı üzrə qiymətin tərkibinə Azərbaycanla bağlanmış və qüvvədə olan uzunmüddətli sazişə əsasən, Yunanıstan–Bolqarıstan interkonnektoru (IGB) ilə nəql olunan Azərbaycan qazının tam razılaşdırılmış həcmi daxildir. Bu həcm aylıq istehlakın 74,66 faizini qarşılayır və qazın əlverişli qiymətlərinin əldə olunmasında həyati əhəmiyyətli rol oynayır.

Göründüyü kimi, Bolqarıstanda “mavi yanacağ”ın ucuzlaşmasında IGB mühüm rol oynayır. Başqa sözlə, bu ölkəyə təbii qaz nəqlinin diversifikasiyalaşdırılması üçün ilk marşrut olan IGB tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə, təbii qaz bazarında rəqabətə mühüm töhfə verir. Bu isə ölkədəki müəssisələr və daxili istehlakçılar üçün qiymətlərin aşağı düşməsini şərtləndirir.

Bu məsələ ilə bağlı bir qədər ətraflı bəhs etmək istərdik. Belə ki, zəngin neft-qaz ehtiyatlarına malik Azərbaycan uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. “Köhnə qitə”nin təbii qazla təminatına mühüm töhfələr verən ölkəmiz artıq bu gün beynəlxalq aləmdə etibarlı enerji tərəfdaşı kimi tanınır. Xatırladaq ki, Azərbaycan 2020-ci il dekabrın 31-də Trans–Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya qaz ixrac edir.

TAP boru kəməri Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanır. Boru kəmərinin ümumi uzunluğu 878 kilometrdir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda Azərbaycan TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçıları təbii qazla təmin edir.

XXI əsrin nəhəng enerji dəhlizi olan Cənub Qaz Dəhlizinin son seqmenti sayılan TAP boru kəməri Avropa ölkələrinə qaz idxalı marşrutlarını şaxələndirməyə geniş imkanlar yaradır. Artıq bir sıra ölkələr tərəfindən interkonnektorlar (birləşdirici kəmərlər) vasitəsilə TAP boru kəməri ilə daxili qaz şəbəkələrinin əlaqələndirilməsinə böyük maraq göstərilir. Bu da Azərbaycan qazının Avropanın dərinliklərinə qədər gedib çatmasına imkan yaradır. Bu baxımdan Yunanıstan–Bolqarıstan (IGB) interkonnektorunu xüsusi qeyd etmək olar.

Bolqarıstan–Yunanıstan İnterkonnektoru (IGB) vasitəsilə tədarük edilən Azərbaycan təbii qazının həcmi Bolqarıstanın tələbatının təxminən 75 faizini ödəyir və bu ölkədə “mavi yanacaq”la bağlı münasib qiymətlərin formalaşmasında həlledici rol oynayır.

Bolqarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanov bu yaxınlarda mediaya müsahibəsində IGB-nin ölkəsinin müxtəlif mənbələrdən və marşrutlardan qazın paylanması üçün əsl regional haba çevrilməsinə imkan yaratdığını bildirib.

Səfir müsahibəsində, eyni zamanda, IGB-nin ötən il oktyabrın 1-də Sofiyada Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin iştirakı ilə keçirilən mərasimdə kommersiya tədarükünə başladığını vurğulayıb.

Xatırladaq ki, IGB qazın Yunanıstan ərazisi ilə Trans–Adriatik Boru Kəməri (TAP) vasitəsilə Bolqarıstana və qonşu ölkələrə nəqli üçün əsas marşrutdur. Bu, Cənub–Şərqi Avropa regionuna qaz tədarüklərinin diversifikasiyası üçün mühüm və ümumi maraq daşıyan layihə olmaqla Mərkəzi və Şərqi Avropada enerji bağlantısı üzrə yüksək səviyyəli infrastrukturdur. Eyni zamanda, Bolqarıstana təbii qaz nəqlinin diversifikasiyalaşdırılması üçün ilk marşrut olan IGB tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə təbii qaz bazarında rəqabəti şərtləndirir.

Azərbaycanla saziş üzrə layihənin əsasını 1 milyard kubmetr tədarük təşkil etdiyi halda, IGB digər yükgöndərənlər tərəfindən rezerv edilmiş uzunmüddətli imkanlara da malikdir. Bunların əksəriyyəti Bolqarıstan bazarı üçün tamamilə yenidir.

Xatırladaq ki, IGB Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” qaz–kondensat yatağının istismarının II mərhələsi çərçivəsində hasil edilən “mavi yanacağ”ın Bolqarıstana nəqlini nəzərdə tutur. “Bulgargaz EAD” dövlət şirkəti “Şahdəniz-2” yatağından 1 milyard kubmetr qazın tədarükü üçün “Şahdəniz” konsorsiumu ilə müqavilə imzalayıb. Azərbaycanın təbii qazı Bolqarıstanın tələbatının 25-30 faizini ödəyə biləcək.

Ümumi uzunluğu 182 kilometr olan boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Boru kəmərin illik ötürücülük qabiliyyətinin 3-5 milyard kubmetr olacağı gözlənilir.

IGB-nin mühüm əhəmiyyətə malik olması artıq statistik göstəricilərlə sübuta yetirilib. Belə ki, 2023-cü ilin birinci yarısında həmin interkonnektor ilə 669 milyon kubmetr qaz nəql olunub. Bu barədə boru kəmərinin operatoru olan ICGB şirkətinin icraçı direktorları Teodora Georgiyeva və Corc Satlasın mətbuata açıqlamalarına görə, hesabat dövründə boru kəməri ilə nəql edilən qazın həcmi 7,8 milyon meqavat-saat olub. Bu isə 669 milyon kubmetrə ekvivalentdir. Bu arada, Azərbaycan qazını Bolqarıstana çatdıran Yunanıstan–Bolqarıstan birləşdirici boru kəməri vasitəsilə kommersiya tədarükünün başlandığı vaxtdan cari il iyun ayının sonunadək nəql olunan qazın həcmi də açıqlanıb. Bolqarıstan mətbuatının yaydığı məlumata görə, hesabat dövründə kəmərlə, təqribən, 1 milyard 90 milyon kubmetr qaz nəql edilib. Bu da elektrik enerjisi ekvivalentində 12,7 meqavat-saata bərabərdir.

Məlumatda qeyd olunur ki, 185 kilometrlik Yunanıstan–Bolqarıstan birləşdirici boru kəməri Bolqarıstanı Trans-Adriatik Qaz Boru Kəməri ilə (TAP) birbaşa əlaqələndirir. İndiyədək IGB-nin 22 interkonnektor istifadəçi şirkəti qeydiyyata alınıb.

***Vaqif BİNYATOĞLU,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Bolqarıstan–Yunanıstan İnterkonnektorunun (IGB) illik ümumi nəqletmə gücü 3 milyard kubmetrdir. Bunun da 1,57 milyard kubmetri 25 ilə qədər davam edən uzunmüddətli müqavilələr əsasında artıq bron edilib. Yerdə qalan imkanlar müxtəlif müddətlərlə Avropanın “PRISMA” və “RBP” kimi 2 iri ticarət platformalarına çıxarılır. Şirkətdən verilən məlumata görə, illik imkanlar üzrə hərraclar uğurla yekunlaşdıqdan sonra IGB-nin növbəti qaz ili üzrə ümumi imkanlarının artıq 80 faizi bron edilib.

Avropada təbii qaza tələbatın getdikcə artması ilə əlaqədar gələcəkdə birləşdirici boru kəmərinin illik ötürmə gücünün 5 milyard kubmetrə çatdırılması planlaşdırılır. Yeri gəlmişkən, boru kəmərinin istismarına görə cavabdehlik daşıyan və ötürmə sisteminin müstəqil operatoru olan ICGB şirkəti adıçəkilən infrastrukturun buraxılış imkanlarının ildə 5 milyard kubmetrədək artırılmasında bazarın maraqlı olub-olmadığını öyrənmək məqsədilə bu yaxınlarda buraxılış imkanlarının artırılması proseduruna başlayıb.

Bolqarıstana təbii qaz nəqlinin şaxələndirilməsi üçün ilk marşrut olan IGB tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə təbii qaz bazarında rəqabətə mühüm töhfə verir ki, bu da ölkədəki müəssisələr və daxili istehlakçılar üçün qiymətlərin optimallaşdırılmasının vacib şərtidir. Qeyd edək ki, Bolqarıstanın “Bulgargaz” şirkəti Azərbaycan qazının nəqlinə dair “Şahdəniz” konsorsiumu ilə müqavilə imzalayıb. Müqaviləyə əsasən, Bolqarıstan şirkətinin “Şahdəniz-2” layihəsi çərçivəsində ildə 1 milyard kubmetr qaz alacağı nəzərdə tutulub.

## Zəruri xarici avadanlıq gömrük rüsumundan azad edilib



**Baş nazir Əli Əsədovun imzaladığı qərara görə, Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən, iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar 2023-cü il yanvarın 1-dən 2 il müddətinə gömrük rüsumlarından azad edilib.**

## Kənd təsərrüfatında yeni dövlət standartı

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən “AZS 939:2023” – “Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması. Termin və təriflər” dövlət standartı qəbul edilib.**



AZSTAND-dan verilən açıqlamada bildirilib ki, respublikamızda heyvandarlığın inkişaf etdirilməsinin şərtlərindən biri də yüksək genetik məhsuldarlıq potensialı olan heyvanların sayının artırılması yolu ilə yeni təsərrüfatların formalaşdırılması və intensiv texnologiyalar əsasında heyvandarlıq məhsullarının istehsalının təmin edilməsidir. Bu standart “ГОСТ 27775:2014” dövlətlərarası standartı əsasında hazırlanıb və kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması sahəsində istifadə edilən anlayışların sistemli şəkildə təsviridir.

Yeni dövlət standartı “Heyvandarlıq, quşçuluq, arıçılıq, baramaçılıq və yemçilik sahəsinin standartlaşdırılması üzrə” Texniki Komitədə (AZSTAND/TK 24) müzakirəyə çıxarılıb və adıçəkilən institut tərəfindən təsdiqlənərək standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

## Dəmir yollarında sərnişin daşınması 51 faiz artıb

**“Azərbaycan Dəmir Yolları” QSC-dən verilən məlumata görə, bu ilin ilk 7 ayında dəmir yolları ilə ümumi yükdaşımada 5 faiz artım olub. İlin əvvəlindən indiyədək vaqonlarla 10,6 milyon ton yük daşınıb.**



Qatarlarla sərnişindaşımada da müsbət göstərici əldə edilib. Belə ki, cari ilin yanvar–iyul aylarında Azərbaycanda dəmir yolları ilə 3 milyon 753 min insan daşınıb. Bununla da həmin müddətdə dəmir yolları ilə sərnişindaşımada 51 faiz artım qeydə alınıb.

***“Xalq qəzeti”***

# “Şahdəniz” qaz hasilatının şah damarıdır

## 6 ayda yataqdan 13 milyard kubmetr qaz və 2 milyon tondan çox kondensat çıxarılıb

**(əvvəli 1-ci səhifədə)**

Hasilata başlanıldığı 2007-ci ilin əvvəlindən 2023-cü il iyulun 1-dək “Şahdəniz” yatağından təqribən 196 milyard kubmetr qaz çıxarılıb. Bunun da 58 milyard kubmetri Azərbaycanın daxili bazarında istifadə olunub. Energetikamızın incisi sayılan “Şahdəniz” yatağının indən belə daha 100 il Azərbaycan və tərəfdaş ölkələr üçün əsas tədarük bazası olacağı proqnozlaşdırılıb.

“Şahdəniz”in açılması rəsmən elan olunandan ötən 24 il ərzində yatağın səmərəli fəaliyyəti istiqamətində çox sayda layihələr reallaşdırılıb. Təkcə cari ilin ilk 6 ayında həyata keçirilən tədbirlər nəticəsində “Şahdəniz” qurğularının hasilat gücü gündə təxminən 72,6 milyon (ildə təqribən 26,5 milyard) standart kubmetrə çatdırılıb.

BP şirkətinin cari ilin birinci yarısının yekun hesabatına əsasən, bu dövrdə “Şahdəniz” yatağında həyata keçirilən tədbirlərə, təxminən, 1 milyard 208 milyon dollar əməliyyat xərcləri və 408 milyon dollar isə əsaslı xərclər çəkilib. Bu xərclərin böyük əksəriyyəti “Şahdəniz 2” layihəsinə aid olub.

Qeyd edək ki, “Şahdəniz” perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş 1996-cı il iyunun 4-də imzalanıb. Yataq üzrə hasilatın pay bölgüsü sazişi isə 1996-cı il oktyabrın 17-də ratifikasiya olunub. Bakıdan 70 kilometr cənub–şərqdə yerləşən yataq 1999-cu ildə kəşf edilib.

Hazırda “Şahdəniz 2” çərçivəsində “İstiqlal” qazma qurğusu vasitəsilə həyata keçirilən quyuların tamamlama işləri yatağın şərq–şimal cinahından dördüncü rübə planlaşdırılan hasilatın başlanması qrafikinə uyğun aparılıb. Burada quraşdırma və sınaq işləri həm sualtı, həm də “Şahdəniz Bravo” platformasının üst modullarında icra olunub. Layihə çərçivəsində şərq–şimal cinahının hasilat axın xətlərində suvurma, təmizləmə, ölçmə və hidrosınaq tədbirləri uğurla yerinə yetirilib, cinahda bütün elastik monoborular quraşdırılıb, eləcə də “Şahdəniz Bravo” platforması ərazisində qalan qoşucu qovşaqların birləşdirilməsi əməliyyatları tamamlanıb. İlin ilk altı ayında “Şahdəniz Alfa” platformasından isə quyu qazılmayıb, bu müddət ərzində platformanın qazma qurğusunda profilaktik işlər görülüb.

Ümumilikdə hesabat dövründə “Şahdəniz 2” çərçivəsində 21 quyu qazılıb. Başqa sözlə, yatağın şimal cinahında beş, qərbində dörd, cənub–şərqində dörd, cənub–qərbində beş və şimal–şərq cinahında üç quyu istismara hazırlanıb. İlin ilk 6 ayında, həmçinin “Şahdəniz” yatağından Azərbaycan, Gürcüstan, Türkiyə bazarlarına, çoxsaylı obyektlər üçün “Bakı–Tbilisi–Ceyhan”a (BTC) və Avropadakı alıcılara qaz çatdırılması davam etdirilib.

Birinci yarımildə “Şahdəniz” yatağının “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarından birlikdə, təqribən, 13 milyard standart kubmetr qaz və 2 milyon tondan çox (təqribən 18 milyon barel) kondensat hasil edilib.

Qeyd edək ki, mövcud “Şahdəniz” qurğularının hasilat gücü hazırda gündə, təxminən, 72,6 milyon (ildə təqribən 26,5 milyard) standart kubmetrdir.

Yataqda quraşdırma və sınaq işləri həm sualtı, həm də “Şahdəniz Bravo” platformasının üst modullarında davam etdirilib. Layihə çərçivəsində şimal–şərq cinahının hasilat axın xətlərində suvurma, təmizləmə, ölçmə və hidrosınaq işləri uğurla yerinə yetirilib, cinahda bütün elastik monoborular quraşdırılıb, eləcə də “Şahdəniz Bravo” platforması ərazisində qalan qoşucu qovşaqların birləşdirilməsi işləri tamamlanıb. İlin ilk altı ayında “Şahdəniz Alfa” platformasından isə quyu qazılmayıb, bu müddətdə platformanın qazma qurğusunda profilaktik tədbirlər həyata keçirilib.

BP-nin kəşfiyyat və hasilat üzrə icraçı vitse-prezidenti Qordon Birrell “Argus” nəşrinə açıqlamasında Azərbaycandakı neft-qaz yataqlarının zəngin potensiala malik olduğunu bildirib. O, BP-nin “Şahdəniz” yatağında hasilatı 1,2 trilyon kubmetrə qədər artırmaq və “Azəri–Çıraq–Günəşli” (AÇG) yataqlar blokunda hasilatın təbii azalmasının qarşısını almaq təşəbbüsləri üzərində işlədiyini də vurğulayıb.

O, “Şahdəniz”də qaz hasilatının bu il 26 milyard kubmetr həcmində pik həddə çatacağını qeyd edərək xatırladıb ki, BP-nin hasilatı daha da artıracağı əsas məqsədlərdən biridir. Hazırda neft hasilatının artırılması üçün sıxlaşdırılmış qazma işləri aparılır.

BP-nin kəşfiyyat və hasilat üzrə icraçı vitse-prezidentinin sözlərinə görə, Azərbaycan qazı keyfiyyətli qazdır. Hazırda bu qaz Azərbaycandan Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniya vasitəsilə İtaliyaya tədarük edilir. Lakin BP və onun Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşları AÇG-nin fəaliyyət dövrünü artırmaq üçün əllərindən gələni edirlər. AÇG-nin böyük gələcəyi var. Bu, böyük geologiyaya malik nəhəng neft yatağıdır.

Q. Birrell, eyni zamanda, zəngin ehtiyatların zamanla tükəndiyini etiraf edib: “Bizim işimiz bu azalmanı aradan qaldırmaqdır. Biz hazırda məhz bunu edirik. Hazırda BP AÇG-də iki böyük layihə üzərində çalışır. Şirkətin bir nömrəli yeni layihəsi “Azəri–Mərkəzi Şərqi” (ACE) platformasıdır. Platforma gündəlik 100 min barelə qədər neft hasil etmək üçün nəzərdə tutulub. Bu, həmçinin AÇG müqavilə sahəsinin şərqində bir sıra quyuların qazılmasına imkan verəcək”.

BP-nin kəşfiyyat və hasilat üzrə icraçı vitse-prezidenti fikirlərinin davamında ikinci istiqamətə AÇG-də yatağın tam istismar dövrünün maksimum bərpası olduğunu qeyd edir. Bildirir ki, bu proses zamanı yuxarı Balaxanı ehtiyatlarının işlənilməsi, hasilatın azalmasının qarşısını almaq üçün daha çox qaz, su vurulması diqqətdə saxlanılır.

AÇG-də yatağı Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü il sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. Bu sazişlə yataqların 2049-cu ilin sonunadək işlənməsi nəzərdə tutulub.



ACE layihəsi Xəzər dənizində nəhəng AÇG yatağının işlənməsinin növbəti mərhələsidir. Layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelə qədər hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelə qədər neft hasil olunacağı proqnozlaşdırılır.

ACE layihəsi çərçivəsində dənizin, təxminən, 140 metr dərinliyində, mövcud “Mərkəzi Azəri” və “Şərqi Azəri” platformalarının arasında yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud “AÇG Faza 2” sualtı ixrac kəmərlərinə qoşulacaq.

BP-nin hesabatında digər bir məqam isə Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) fəaliyyəti ilə bağlıdır. Hesabatda ilin birinci yarısında CQBK-nin əməliyyat xərclərinin, təqribən, 39 milyon dollar, əsaslı xərclərin isə 3 milyon dollardan çox olduğu bildirilir.

2006-cı ilin sonlarında istismara verilən CQBK boru kəməri Azərbaycan, Gürcüstan və Türkiyəyə “Şahdəniz” qazını çatdırır. CQBK-nin genişləndirilməsi sistemi vasitəsilə kommersiya qaz həcmləri Türkiyəyə 2018-ci ilin iyun ayından, Avropaya isə 2020-ci ilin dekabr ayından etibarən ötürülür.

Yazının sonunda BP şirkətinin cari ilin birinci yarısının yekun hesabatına öz ifadəsini tapan bir məsələni də xatırladaq. Burada bildirilir ki, 2023-cü ilin birinci yarısında Bakı–Tbilisi–Ceyhan (BTC) üzrə əməliyyat xərclərinə təxminən 59 milyon dollar, əsaslı xərclərə isə 18 milyon dollar vəsait xərclənib.

BP-nin hesabatına əsasən,1768 kilometr uzunluğunda olan BTC boru kəməri istismara verildiyi 2006-cı ilin iyun ayından bu ilin ikinci rübünün sonunadək bu kəmər vasitəsilə ümumilikdə təqribən 546 milyon tondan çox (4,1 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5402 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC boru kəmərinin ümumilikdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi 2023-cü il yanvarın 18-də qeyd edilib.

Hazırda BTC boru kəməri əsasən Azərbaycandan “Azəri–Çıraq–Günəşli” neftini və “Şahdəniz” kondensatını daşıyır. Bundan əlavə, bu kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri də Qazaxıstan və Türkmənistana nəql olunur.

***“Xalq qəzeti”***

# Mətbuat Şurası ahıl jurnalistləri unutmur



**Mətbuat Şurasının ahıl jurnalistlərlə bağlı keçirdiyi son tədbir haqqında olan məlumatı oxuyanda qeyri-ixtiyari olaraq, bir daha ulu öndərə rəhmət oxudum. Ümummilli liderimiz mədəniyyət xadimləri ilə görüşlərinin birində demişdi ki, cəmiyyətin bir çox sahələrində kimsə başqa birinin tutmalı olduğu vəzifəyə, mənsəbə nail ola bilər. Ancaq yaradıcılıq sahəsində bu, qətiyyən mümkün deyil. Yəni yaradıcı insanların hərəsinin həm öz sahəsində, həm də cəmiyyətdə məhz öz yeri var və həmin yerə başqa kimsə sahib ola bilməz. Qətiyyətlə deyə bilərik ki, jurnalistika da həmin sahələrdən biridir.**

Mən bu arqumenti son otuz ildə dəfələrlə təkrarlamışam. Çünki sözün həqiqi mənasında yaradıcı həmkarlarımızın hamısı cəmiyyətdə tutacağı yeri özü təmin edir. Kiminsə köməyi ilə nail olunan mövqenin müvəqqəti olduğunu da dəfələrlə görmüşük. Bu baxımdan, Mətbuat Şurasının son qərarını da, şura sədri Rəşad Məcidin tədbirdə səsləndirdiyi fikirləri də, təltif olunan həmkarlarımızın əməklərinə verilən qiymətə görə dilə gətirdikləri təşəkkürləri də, söylədikləri xoş xatirələrini də, jurnalist peşəsinin məziyyətləri barədə dediklərini də alqışlayırıq. Bu qərarı əlamətdar edən cəhətlərdən biri də həmin ahıl həmkarlarımızın fəaliyyətinin məhz "Heydər Əliyev İli"ndə qiymətləndirilməsidir.

Xatırladım ki, söhbət Azərbaycan Mətbuat Şurasında veteran jurnalistlərin bir qrupu ilə keçirilən görüşdə şuranın tərkibində fəaliyyət göstərən Ahıl Jurnalistlər Məclisi üzvlərindən dörd nəfərin diploma təltif edilməsindən gedir.

Mətbuat Şurasına təşəkkür edirik ki, ölkədəki çoxsaylı ahıl jurnalistlər arasından seçilən dörd nəfərin sırasında məhz xalqımızın ən uzunömürlü – anadilli qəzetlər arasında – mətbuat vasitələrindən olan "Xalq qəzeti"nin təmsilçisi də vardır. Hacı Qüdrət Piriyev bu gün redaksiyamızda həm hamıdan yaşlı, həm də hamıdan təcrübəli qələm sahibidir. Təxminən əlli il müddətində "Azərbaycan gəncləri", "Bakı" , "Kommunist" və "Xalq qəzeti" kimi nüfuzlu nəşrlərdə çalışmış bu həmkarımız həm jurnalist, həm də qəzetçi kimi özünəməxsus təcrübə və nüfuz qazanmışdır. Xatırladaq ki, bəzi həmkarlarımız jurnalist kimi daha çox irəli getməyi bacarır, bəziləri isə qəzetçi kimi başqalarından fərqlənirlər. Qüdrət Piriyev isə həmin istiqamətlərin hər ikisində uğur qazanmış həmkarlarımızdandır. Ona görə də, bu siyahını tərtib edən Mətbuat Şurası rəhbərliyinə təşəkkürlər düşür.

Milli mətbuatımızın 148-ci ildönümü münasibətilə fərqləndirilən həmkarlarımızı təbrik edir, onlara məsuliyyətli fəaliyyətlərində yeni uğurlar arzulayırıq.

***

Qeyd edək ki, Azərbaycan Mətbuat Şurasında veteran jurnalistlərin bir qrupu ilə görüş keçirilib. MŞ sədri Rəşad Məcid toplantını açaraq bildirib ki, rəhbərlik etdiyi qurum ömrünü-gününü jurnalist peşəsinə sərf etmiş qələm sahiblərinin əməyinin qiymətləndirilməsinə, onlarla bağlı tədbirlərin təşkilinə böyük önəm verir. R.Məcid, həmçinin, vurğulayıb ki, şura milli mətbuatımızın 148 illiyi ilə bağlı veteran jurnalistlərin bir qrupunu mükafatlandırıb.

Təltif edilənlərdən "Xalq qəzeti"nin baş redaktorunun birinci müavini Qüdrət Piriyev, uzun illər Azərbaycan Dövlət Televiziyasında çalışmış Allahverdi Əsədov, hazırda əmək fəaliyyətini "525-ci qəzet"də davam etdirən Tamella Məmmədzadə xoş xatirələrini bölüşüb, jurnalist peşəsinin məziyyətlərindən söz açıb, əməklərinə verilən qiymətə görə təşəkkürlərini bildiriblər.

Təltif olunanlar arasında tanınmış jurnalist Zakir Abbas da var.

*İ.MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

# Kəmaləddin Heydərov Qomelauriyə başsağlığı verdi

**Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauriyə başsağlığı məktubu göndərib.**



Bu barədə "Qafqazinfo"ya FHN-dən bildirilib.

Nazir Raça regionunun Şovi bölgəsində baş vermiş torpaq sürüşməsi nəticəsində insanların həlak olması və xəsarət alması ilə əlaqədar başsağlığını çatdırıb, yaralananların tezliklə sağalmasını arzuladığını bildirib.

# MDB ölkələrinin III Oyunları Azərbaycanda

**MDB ölkələrinin III Oyunları 2025-ci ildə Azərbaycanda keçiriləcək. "Xalq qəzeti" BELTA-ya istinadla xəbər verir ki, bunu jurnalistlərə Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyev MDB ölkələrinin II Oyunlarının açılışı ərəfəsində deyib.**



Azər Əliyevin sözlərinə görə, Azərbaycanda idman tədbirlərinin keçirilməsində artıq yaxşı təcrübə var. "Ümid edirik ki, iki ildən sonra Azərbaycanda keçiriləcək MDB ölkələrinin III Oyunlarını da layiqincə təşkil edəcəyik. Ola bilsin ki, biz daha çox regionu daxil edək. Ümid edirik ki, bütün qonaqları yaxşı mənada təəccübləndirəcəyik".

Baş katib 2019-cu ildə Minskdə keçirilən II Avropa Oyunlarında olduğunu bildirib: "Bu oyunlar təşkilatçılıq və idman proqramı baxımından çox yüksək səviyyədə keçirilib. Deməli olar ki, bütün yarışların keçirildiyi yerlərdə olduq. Minski gəzəndə çoxlu idman obyektlərini görmək olar. Belarus idman ölkəsidir. MDB ölkələrinin Oyunları ikinci dəfədir keçirilir, amma düşünürəm ki, bu yarış daha da populyarlaşacaq. Burada əsasən gənc idmançılar çıxış edir və bu da onlara belə böyük tədbirlərdə özlərini sınamaq imkanı verir. Ümid edirik ki, komandamız yaxşı çıxış edəcək".

Qeyd edək ki, Azərbaycan komandası say baxımından üçüncü yerdədir – Oyunlara 16 idman növü üzrə 177 idmançı qatılıb.

MDB ölkələrinin II Oyunları Belarusun 11 şəhərində keçirilir.

*L.QURBANOVA,*
*"Xalq qəzeti"*

# Şuşanın ekoloji problemləri ardıcıl aradan qaldırılır

**Xəbər verdiyimiz kimi, bu günlərdə Şuşada Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupunun iclası keçirilib.**



Qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov nazirlik tərəfindən Şuşa rayonu ərazisində həyata keçirilən ekoloji tədbirlər, o cümlədən meşəbərpa və yeni yaşıllıq sahələrinin salınması tədbirləri, xüsusi mühafizə olunan təbiət əraziləri, eləcə də Xocalı və Şuşa rayonlarının inzibati ərazisində nadir təbiət komplekslərinin, xüsusilə tarixi və paleontoloji abidələrin qorunması və etalon ərazi kimi saxlanılması məqsədilə 1988-ci ildə yaradılmış Daşaltı Dövlət Təbiət Yasaqlığının fəaliyyətinin bərpası istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Bildirilib ki, rayon ərazisində mövcud olmuş 8 min 526 hektar meşə fondu sahəsinin meşə ilə örtülü 2 min 972,8 hektarı və Daşaltı Dövlət Təbiət Yasaqlığının (ümumi sahəsi 450 hektar) 50 hektarı məhv edilib. 1990-cı illərdə qeydiyyata alınmış 8 mineral-xammal yatağından 4-ü istismar edilib. Ermənistan tərəfindən 30 illik işğal dövründə ətraf mühitə vurulmuş ziyana beynəlxalq hüquqi müstəvidə qiymət verilməsi ilə əlaqədar məsələyə cəlb olunmuş ekspertlərlə birgə məlumat mübadiləsi aparılır.

Qeyd edilib ki, Şuşa şəhəri ərazisində hidrometeoroloji şəbəkənin bərpası istiqamətində bütün lazımi sensorlarla təchiz edilmiş avtomat meteoroloji stansiyanın quraşdırılması işləri yekunlaşdırılıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Şuşa şəhərində olan mövcud yaşıllıqların bərpası ilə yanaşı, yeni salınacaq yaşıllıqlarda istifadə olunacaq ağac və kolların bioekoloji xüsusiyyətləri nəzərə alınmaqla siyahısı tərtib olunub və əkin tipinə görə təsnifatı hazırlanıb. Şuşa rayonu ərazisində yerləşən Topxana meşəsinə bitişik olan 1,5 hektar torpaq sahəsində və Şuşa şəhərinin giriş hissəsinin sol tərəfində 0,02 hektar torpaq sahəsində yerli şəraitə uyğun ağac növləri əkilib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda Xüsusi Nümayəndəliyinin təmsilçisi bildirib ki, şəhərdə bərk məişət tullantılarının "Təmiz Şəhər" ASC tərəfindən idarə edilməsi davam etdirilir. Şəhərdə 70 meydançada 121 konteyner yerləşdirilib, 6 xüsusi texnika və 4 çeşidli yeraltı konteynerlər alınıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Faiq Mütəllimovun təqdimatında Ağdam rayonunun Kəngərli kəndinin bərpa və yenidən qurulması zamanı yaranan tikinti-sökünti tullantılarının təkrar emalına başlanıldığı qeyd olunub.

Akademik İradə Hüseynova AMEA Biologiya və Tibb Elmləri Bölməsinin təşkilatçılığı ilə son iki ildə keçirilmiş konfrans və elmi seminarlarda Şuşa rayonuna xüsusi diqqət yetirildiyini bildirib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi tərəfindən Şuşa şəhərinin içməli su təchizatı sistemlərinin yenidən qurulması işləri barədə məlumat verilib. Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsindən perspektiv inkişaf nəzərə alınmaqla 25 min nəfər faydalanacaq. Bildirilib ki, şəhərin içməli su tələbatı mövcud Kiçik Kirs, Zarıslı mənbələri və 2022-ci ildə istismara verilmiş Zarıslıçay su anbarı hesabına ödəniləcək, eləcə də su təchizatında dayanıqlığın təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib.

İclasda Şuşa şəhəri ərazisində icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib.

*T.RÜSTƏMLİ,*
*"Xalq qəzeti"*

# Hakan Fidan Entoni Blinkenlə Azərbaycan–Ermənistan arasında normallaşma prosesini müzakirə edib

**Türkiyənin xarici işlər naziri Hakan Fidanla ABŞ-ın dövlət katibi Entoni Blinken arasında telefon danışığı baş tutub.**



Bu barədə Türkiyə Xarici İşlər Nazirliyindən bildirilib.

Qeyd olunub ki, nazirlər Cənubi Qafqazda baş verən proseslər və bu kontekstdə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, "Taxıl sazişi"nin bərpası, Qara dənizdə təhlükəsizliyin təminatı və NATO-nun genişlənməsini müzakirə ediblər.

# Füzuliyə də qayıdış başlayır



**Dünən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib.**

Püşkatmada 144 ailə ( 509 nəfər) iştirak edib və onlara verilən evlərin dəqiq ünvanı müəyyənləşdirilib. Ailə tərkibinə uyğun olaraq, keçmiş məcburi köçkünlərdən 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Püşkatmada iştirak etmiş ailələr qısa müddətdə Füzuli şəhərinə yola salınacaqlar.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Gürcüstanda təbii fəlakət qurbanlarının sayı 16-ya çatıb

**Gürcüstanın qərbindəki Şovi bələdiyyəsi ərazisində baş vermiş torpaq sürüşməsi nəticəsində ölənlərin sayı yenidən artıb. Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.**



Bildirilib ki, daha bir nəfərin cəsədi torpağın altından çıxarılıb. Bununla da torpaq sürüşməsi nəticəsində ölənlərin sayı 16-ya çatıb. 24 nəfərin axtarışı isə davam edir. Həlak olanların 7-sinin kimliyi artıq müəyyən olunub.

*"Xalq qəzeti"*

# Nil Vatson: Ankara ilə İrəvan arasında əlaqələrin normallaşmasının yolu Bakıdan keçir

**"Ermənistan həm Azərbaycan, həm də Türkiyə ilə münasibətlərin normallaşmasına nail olmaq üçün aqressiv ritorikanı yumşaltmalı və keçmişdə, xüsusən də Birinci Qarabağ müharibəsi zamanı törətdiyi cinayətlərə görə üzr istəməlidir". Bunu britaniyalı politoloq və jurnalist Nil Vatson deyib.**



Politoloq qeyd edib ki, Ermənistan hakimiyyəti dərk etməlidir ki, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşması ölkənin regionun bir hissəsi kimi inkişafı və müstəqil dövlət kimi formalaşması üçün vacibdir: "Ermənistan buna nail olmaq üçün nümayiş etdirməlidir ki, onun ən böyük müttəfiqləri olan Rusiya və İranın "himayəsindən" çıxır. Belə ki, onlar Ermənistanın maraqlarına məhəl qoymayaraq, faktiki olaraq öz maraqlarını güdürlər".

Şəhidlərimiz

# Adına, soyadına layiq oğul – Atəş Aslanov

## İşğalla azadlıq arasında Vətən sevdalı bir ömür yaşadı



Vətən müharibəsində mənfur düşmənin açdığı atəşlər neçə-neçə gəncin ömrünə xəncər kimi saplandı, onların həyatlarını yarıda kəsdi, ailələrinə əbədi dağ çəkdi. Heç 30 yaşına çatmayan oğullarımız Vətənin müdafiəsinə canlarını sipər etdilər.

Onlardan biri də 1993-cü il, aprel ayının 1-də Tovuzun dağlıq məkanlarından birində – Çeşməli elinin Məşədivəlilər kəndində doğulan Atəş oldu. Zəhmət adamı Yusif kişinin oğlunun adı da Atəş idi, özü də.

Atəş dünyaya göz açanda Qarabağ od-alov içində idi. Onun ana laylası ilə yatıb-durduğu günlərdə Kəlbəcər işğal edilmişdi... Kəlbəcərdən üzü Gəncəyə, Tovuza, Bakıya... köç başlamışdı. İnsanlar min bir əziyyətlə tikib-qurduqları evəşiyini, mal-qarasını yurdda qoyub can hayına qalmışdılar.

Bu işğal 27 il sürdü..! Atəşin ömrü də işğalın ömrü qədər oldu. Vətən torpaqları işğal edilən günlərdə doğuldu, Vətən torpaqları işğaldan azad olunan zamanda da şəhid oldu! İşğalla azadlıq arasında keçən, Vətən sevdalı bir ömür yaşadı! İşğal atəşləri Vətənin başı üzərini alanda bu dünyaya gəldi, düşmən ordumuzun atəşləri ilə darmadağın olan günlərdə isə azadlığı dadmadan əbədiyyətə qovuşdu!

Atəş Aslanov 2001-ci ildə Məşədivəlilər kənd orta məktəbinin I sinfinə daxil olub. İbtidai təhsildən sonra 2004-cü ildən rayonun Aşağı Quşçu kəndindəki İmran Bayramov adına orta məktəbə keçib və 2011-ci ildə bitirib. 2012-ci ildə həqiqi hərbi xidmətə gedən Atəş iki il sonra hərbi xidməti şərəf və ləyaqətlə başa vuraraq kəndə dönüb.

2020-ci ilin iyulunda Ermənistanın dövlət sərhədinin Tovuz istiqamətində uğursuz hücum cəhdi rayonun bütün sakinləri kimi Atəşi də qəzəbləndirmişdi. O, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üsrə Dövlət Xidmətinin Tovuz Rayon Şöbəsinə gedərək, könüllü olaraq orduda xidmət etmək, işğalçılara qarşı döyüşlərə qatılmaq istədiyini bildirib. Öncə ona etiraz ediblər. Atəşin günlərlə şöbəyə ayaq döyməsini və ciddi-cəhdlə döyüşlərə qoşulmaq istəyini nəzərə alan əməkdaşlar onun adını könüllülər siyahısında qeydiyyata alırlar. Bu, həmin günlər idi ki, Tovuzun uşaqdan tutmuş yaşlıya qədər hamısı silahlanıb erməniyə qarşı döyüşə getmək istəyirdi.

...Sentyabr ayında Azərbaycan Respublikası Prezidentinin qismən səfərbərlik elan etməsindən sonra ordu sıralarına qatılan Atəş, 27 sentyabrda işğalçılara qarşı əks-hücum əməliyyatlarında fədakarlıqla iştirak edib. Azərbaycan Ordusu Quru Qoşunların əsgəri Atəşin döyüş yoldaşlarının xatirələrində o, canlı əfsanə kimi yüksək döyüş qabiliyyətinə malik, bacarıqlı, qorxubilməz döyüşçü kimi qalıb. Danışırlar ki, Atəş düşmənin üstünə hayqıraraq gedirdi. Hər erməni ölüsü ilə fəxr edir, "biri də cəhənnəmə vasil oldu"–deyə mahnılar oxuyur, döyüş yoldaşlarını ruhlandırırdı. Onun boş dayandığını kimsə görməzdi. Gah yaralıların sarğısına baxır, gah döyüşçü yoldaşının istəyini yerinə yetirir, gah da əlini qulağının dibinə qoyub zəngulə vururdu. Gözəl səsi vardı. Bəzən komandirlər ona "yerimizi bildirəcəksən, astadan oxu"– deyəndə – "bu gün bayramımızdır, gör neçəsini gəbərtmişik, neçə kənd irəli getmişik"– deyirdi.

Vətən müharibəsində düşmənə adı kimi od-atəş saçan Atəş, Füzuli rayonunda gedən ağır döyüşlərdə haqqa qovuşub. Oktyabrın 25-də Atəş gözlərini əbədi yumub. Atəş, həqiqətən qəhrəmancasına şəhid olub. Yenə dostlarının söylədiklərinə görə yaralanan Atəş dayanmayıb, tibbi yardımdan imtina edib, "irəli getdiyimiz vaxtda dayanmaq olmaz, irəli dostlar!"– deyərək özü qan içində olmasına baxmayaraq, döyüşçü yoldaşlarını ruhlandırıb.

27 illik ömrünü şərəflə və ləyaqətlə başa vuran Atəş, hərbi xidməti zamanı Vətənə sədaqət və məhəbbətini canını verməklə təsdiqlədi. Özü getdi, amma igidliyi ilə yaddaşlarda qaldı. Şəhidimizin yurdunda yadigar bir övladı böyüyür.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımları ilə Qələbədə xidmət etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Atəş Yusif oğlu Aslanov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

Sosial sfera yenilikləri

### Əlil uşaqların valideynləri ilə görüş




**Sosial Xidmətlər Agentliyinin 18 yaşınadək əlillər üçün 2 saylı sosial xidmət müəssisəsində valideynlərlə görüş keçirilib. Xidmət ocağının direktoru Pərvanə Səfərova valideynlərə burada göstərilən xidmətlər barədə məlumat verib.**

O, bildirib ki, müəssisədə uşaqlara müəyyən edilmiş rejimə, fərdi iş planına uyğun xidmət və qayğı göstərilir. Burada fiziki qüsurlu uşaq və gənclərin abilitasiyası və reabilitasiyası həyata keçirilir.

Həmçinin uşaqların yaşı və sağlamlıq imkanları nəzərə alınaraq onların ilkin biliklərə və peşə bacarıqlarına yiyələnməsi, fiziki tərbiyəsi və s. istiqamətlərdə işlər aparılır. Onların daimi və keyfiyyətli qidalanması, zəruri gündəlik ehtiyacları da təmin edilir.

Görüşdə iştirak edən 15 valideynin sualları cavablandırılıb, təklifləri dinlənilib və müzakirələr aparılıb. Toplantı ədəbi-bədii hissə ilə davam etdirilib.

### 1 ayda 2,6 min işsiz kiçik biznes qurub

**Dövlət Məşğulluq Agentliyinin özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin biznes planlarına uyğun mal və materiallar formasında aktivlərlə təminatı davam edir. Bu barədə Əmək bə Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız xəbərdə deyilir.**



Bildirilir ki, son bir ayda daha 2 min 581 nəfər özünüməşğulluq proqramı iştirakçısı aktivlərlə təmin olunub. Proqram iştirakçıları onlara verilmiş aktivlər üzrə öz kiçik biznes sahələrini yaradıblar.

Qeyd edək ki, proqram iştirakçıları üçün əvvəlcə kiçik biznesin təşkili üzrə bilik və bacarıqlara malik olmaları məqsədilə təlimlər təşkil edilir, sonra aktivlərlə təmin olunurlar.

### Azərbaycan ukraynalı uşaqlara yenə qucaq açıb

**Ukraynadakı vəziyyətlə əlaqədar artıq davamlı olaraq uşaqlar müalicə və istirahət məqsədilə ölkəmizə göndərilir. Sosial Xidmətlər Agentliyinin təşkil etdiyi düşərgəyə cəlb edilən uşaqlar bu dəfə Bakı, Şamaxı, Qəbələ və Şəki şəhərlərində 14 günlük müxtəlif reabilitasiya tədbirlərinə cəlb olunacaqlar.**



Peşəkar psixoloqlar tərəfindən keçirilən fərdi konsultasiyalar, qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, psixo-sosial təlimlər, ustad dərsləri vasitəsilə həmin uşaqların emosional vəziyyətlərinin stabilləşməsi, cəmiyyətə inteqrasiyaları təmin ediləcək.

Agentlikdən bildiriblər ki, onlar üçün ingilis dili kursları, ölkəmizin tarixi yerlərinə, muzeylərinə ekskursiyalar da təşkil olunacaq.

*Zərifə HÜSEYNOVA,*
*"Xalq qəzeti"*

Tarixdən gələn səslər

# Qəbələdə alban abidələri niyə dağıdılıb?

## O daşlar babaların yurda sahiblik möhürüdür



*(Əvvəli qəzetimizin 4 avqust 2023-cü il tarixli sayında )*

Qədim yaşayış məskənləri, adətən, çay və ya digər su hövzələrinə yaxın ərazidə salınırdı. Bu məskənlərdən biri də Qəbələ rayonunun Əmirvan kəndi yaxınlığında, Dəstəmaz çayı sahilində qədim alban yaşayış məskəni olub. Yaxınlıqdakı meşəlik ərazidə qədim qəbiristanlıqların olması da bunun əyani sübutudur.

Əmirvan kənd orta məktəbində müəllim işlədiyim dövrdə həmin ərazidə yerləşən 3 alban qəbiristanlıqlarını ziyarət etmişdim. Hər üçündə kiçik ölçülü qəbirlərlə yanaşı, ölçüləri 2 metr və ondan böyük olan dördkünc torpaq qəbirlər də vardı. Bu qədim qəbir abidələrinin baş və sinə daşlarının ölçüləri dəfn olunan şəxslərin hündürboylu olduğuna dəlalət edirdi.

Qəbir abidələrinin üzərindəki damğaların, rəmz və simvolların zənginliyini görəndə çox təəccüblənmişdim, çünki başqa heç bir yerdə – qəbir daşlarında – bu qədər zənginlik görməmişdim.

Görünür, bu səbəbdən də onlar ötən əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərində arxeoloqların diqqət mərkəzində olub. Arxeoloq Firudin Qədirovun rəhbərliyi altında ekspedisiya təşkil olunub və meşəlik ərazidəki qəbiristanlıqlarda arxeoloji qazıntı işləri aparılıb. Bu barədə Əmirvan kənd orta məktəbinin keçmiş direktoru Əmirxan Burzuyev deyir:

– 1969-cu il idi. Tarix elmlər namizədi Firudin Qədirovun rəhbərliyi ilə meşəlik ərazidəki alban qəbiristanlıqlarının yerləşdiyi ərazidə arxeoloji qazıntı işləri aparılırdı. Həmin vaxt Firudin Qədirov hələ 1959-cu ildə Azərbaycan SSR Elmlər Akademiyası tərəfindən yaradılmış Qəbələ arxeoloji ekspedisiyasının tərkibində çalışırdı. Meşəlik ərazidəki qazıntı işləri də Qəbələdə arxeoloji tədqiqatlar çərçivəsində həyata keçirilirdi.

Bir gün Firudin Qədirov Əmirvan kənd orta məktəbinin rəhbərliyinə köməklik göstərilməsi üçün müraciət etdi. Qazıntı işləri aparılarkən ərazidəki iri qəbir daşlarından biri onun diqqətini cəlb etmiş, üzərindəki damğalar marağına səbəb olmuşdu. Bu səbəbdən də qəbir daşını yük maşınına yükləyib Bakıya, akademiyaya aparmaq, damğaların mənalarını öyrənmək niyyətində idi. Daş ağır olduğundan onu yük maşınının (QAZ-51) banına qaldıra bilməmişdilər.

Əmirxan müəllim dedi ki, o zaman Nadir Nəsrullayev, Sabir Aydınov, Arif və Sabir Rizvanovlar, Sabir Məsimov və s. şagirdlərdən ibarət qrup yaradıldı və kömək göstərilməsi üçün arxeoloji qazıntı işləri aparılan əraziyə göndərildi. Qəbir daşı Bakıya aparıldı.

Çox maraqlıdır ki, bundan sonra alban qəbiristanlıqları ilə maraqlanan olmayıb və bu abidələr taleyin ümidinə buraxılıb. Bir müddət ciddi dağıntılara da məruz qalmayıb. Mən 1990-cı ildə alban qəbiristanlığını ziyarət edəndə qəbir daşları yerində idi, "qızıl axtaranlar" qəbirlərdə dəlmə-deşiklər açmamışdılar.

Nəhayət 33 ildən sonra, Qəbələyə səfərim zamanı yenidən alban qəbiristanlığında oldum. Gördüklərimdən çox məyus qaldım, çünki qəbir abidələri dağıdılmışdı.

Keçmişə işıq saçacaq tarixi faktlar beləcə məhv edilmişdi.

### Alban xaçları nə deyir?

Əvvəlcə ilk dəfə rast gəldiyim qəbir abidələrinin üzərindəki damğa və rəmzlər barədə məlumat vermək istərdim. Çünki diqqətimi çəkən onlar olmuş və mənasını öyrənməyi istəsəm də, ilk cəhdlərim uğursuz alınmışdı.

Bu istək isə məni heç vaxt tərk etmədi. Əmin idim ki, bir vaxt gələcək onların hansı tarixi məna daşıdığını öyrənəcəyəm. Mənə ilham verən bu damğalar və rəmzlərin Qafqaz Albaniyası əhalisinin dünyagörüşünü, dini və etnik fərqliliyini əks etdirməsinə inam idi. Doğrudan da, belə idi və sonradan tanış olduğum mənbələr də yanılmadığımı göstərdi.

Qəbir daşlarında ən çox diqqətimi çəkən onların üzərinə həkk olunmuş bərabərtərəfli xaçlar idi və demək olar ki, bir-birinə oxşayırdılar. Yəni bu xaçların dörd tərəfi də bərabər uzunluqda olub, hamısında tarazlıq qorunmuşdu.

Kompozisiya və orijinallıq baxımından zəngin olan bu xaçlar xristianlığa qədərki inamların və kainatı dərketmənin əlamətlərini özündə cəmləşdirmişdi: Tanrını, Günəşi, həyatı təcəssüm etdirirdi. Gürcü alimi A. Şanidzenin 1938-ci ildə çap olunmuş "Qafqaz Albanlarında yeni kəşf edilmiş əlifbası və elm üçün əhəmiyyəti" əsərində bu barədə bildirilir: "Qafqaz Albaniyasında erkən xristianlıq incəsənətinin meydana çıxması və inkişafı tamamilə orijinal, özünəməxsus yolla getmişdir. Bütün alban yazılı daşlarının üzərindəki təsvirlər xristianlığaqədərki inamların və kainat qüvvələrinin qanunauyğun şəkildə yerləşməsi ilə dini-bədii qanunlara tabe edilmiş özünəməxsusluq təşkil edir ki, bu da başqa xalqların xaç təsvirlərində yoxdur. Odur ki, alban daş yazı nümunələrinin (xaç daşlarının, baş daşlarının və nişan daşlarının) bu cür orijinallığı və özünəməxsusluğu onu digər xalqların daş yazı nümunələrindən köklü surətdə fərqləndirir".

Daha sonra gürcü alimi yazır: "Alban xaçı dünyada yeganə xaçdır ki, xristianlığaqədərki inamların və kainatı dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrə malikdir. Bu xaçların bütün kompozisiyaları göylə yerin əlaqəsi, günəş, işıq, nur və məhsuldarlıq simvolu kimi əks olunmuşdur".

Buradan da aydın olur ki, bu xaçlar albanların xristianlıqdan əvvəl Günəşə və oda sitayiş etdiyini göstərir, xristianlığa qədərki elementlər və dini ayinlərlə birbaşa bağlıdır.

Qəbir daşlarında diqqətimi çəkən digər bir özəllik isə Alban xaçının tərəflərinin ucunun sonda üç tərəfə şaxələnməsi, yarpaqların olmasıdır ki, bu da onu qriqoryan xaçından fərqləndirir və qarışıq salınma ehtimalını sıfıra endirir.

İnna Smirnova 2006-cı ildə Moskvada çap olunmuş "Xaçın gizli tarixi" kitabında yazır: "Alban xaçları üç yarpaqlıdır və "gül-yarpaq" xaçlar növünə aid edilirlər. Bunlara müəyyən ədəbiyyatda "liliyaflüor" xaçı da deyirlər və bu xaçların qol-qanadlarındakı "üçlük" albanların qədim inanclarını (Günəş, Ay və Od) təsbit edir".



### Dörd damğada dörd xaç

Alban qəbiristanlığında diqqətimi çəkən bir baş daşını xüsusilə qeyd etmək istəyirəm. Onu başqalarından fərqləndirən dörd dairə formasındakı damğada dörd bərabərtərəfli xaç olması idi. Buna ilk dəfə əkin sahəsinin yaxınlığındakı Alban qəbiristanlığında rast gəlmişdim. Mənim üçün çox maraqlı idi. Nə üçün bir başdaşındakı dörd damğada dörd xaç var. Sən demə bu dörd cəhətin rəmzidir - Şərq, Qərb, Şimalı və Cənubu və dairəvi hərəkəti simvolizə edir.

Eləcə də təbiətin dörd ünsürünü – Odu, Suyu, Torpağı və Havanı özündə əks etdirir.

**Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Sadiq Mirzəyev yazır:**

–Xristianlığın burada yayılıb qəbul edilməsinədək albanlar müxtəlif tanrılara – Günəş tanrısına, Göy tanrısına, Ay tanrısına və digər səma cisimlərinə, həmçinin təbiət qüvvələrinə - suya, oda, torpağa, havaya sitayiş edirdilər. İlk orta əsr müəlliflərinin məlumatına əsasən, xristianlığın qəbuluna qədər yerli əhalinin bir hissəsi bütpərəst olmuşdur. Bütpərəstliyə aid məbədlər Qafqaz Albaniyasının ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Ölkədə müxtəlif dövrlərdə çoxallahlılıq, bütpərəstlik, atəşpərəstliyin yayılmasını arxeoloji araşdırmalar zamanı tapılan kurqanlar, daş qutu və torpaq qəbirlər, katakombalar, sarkofaqlar, küp qəbirlər və s. təsdiqləyir. Bu tapıntılar nəticəsində əhalinin dəfn adətləri və dini həyatı barədə müəyyən təsəvvürlər formalaşmışdır.

Sadiq müəllim haqlıdır. Məhz bu səbəbdəndir ki, alban xaçları özünün daha çox klassik ənənələrinə uyğunlaşdırıb, xristianlığaqədərki inamların və kainat qüvvələrinin qanunauyğun şəkildə yerləşməsi ilə dini-bədii qanunlara tabe edilib. Deməli, bu da xristianlıqdan öncə Albaniyada mövcud olmuş inancların qalıqlarıdır.

### Tale və cənnətin rəmzi

Alban qəbiristanlıqlarındakı baş daşlarında bir damğaya (svastika) də tez-tez rast gəlirdim. Aydındır ki, onun nə məna daşıdığı da marağıma səbəb oldu. Məlum oldu ki, bu damğa (hər hansı bir anlayışın, ideyanın şərti əlamətini ifadə edən işarə, rəmzdir) müxtəlif məna daşıyır. Əvvəlcə Günəş rəmzi olan damğa (svastika), sonralar "çərxi fələk" ifadəsində qalmış, sonsuzluq, əbədiyyət mənasını daşıyır. Zamanın sonsuzluğu və ölməzliyi mənasını verir. Bu həm də "Dairəvi tarix (zaman) anlayışı", yəni, zamanın bir çarx, təkər kimi daim təkrarlanan təsəvvür edilməsi, gedib-geri qayıdışı, fırlanışı kimi başa düşülür. Necə deyərlər, dairəvi hərəkətin sonu əvvələ, başlanğıca qayıdışdır.

Digər tərəfdən möhür damğasıdır.

Bu damğanın başqa mənaları da var; məsələn, qədim türklərdə bu damğa Tanrı, Günəşi və qartal mənasını verir. İnsanı qoruyan, onu müdafiə edən simvoldur; Daha doğrusu, tale və cənnətin simvoludur. Onun pis ruhların məzara girməsinə icazə vermədiyinə və mərhumu mümkün əzabdan azad etdiyinə inanılırdı. Görünür, bu qəbir daşında bu mənanı daşıdığı daha inandırıcıdır.

Deməli, baş daşındakı bu damğa cənnətə işarədir və həmin şəxsin yaxınlarının onun cənnətə düşmə, rahatlıq tapması arzusunun göstəricisidir.

Qeyd edim ki, bu damğadan xalçaçılıqda da istifadə olunur və xalçanın əhd-peyman olaraq toxunduğunu bildirir.

### Ox-yay – hakimiyyət rəmzi

Əmirvandakı alban qəbir daşlarında ox-yay damğası da xeyli maraqlıdır. Əvvəlcə dəfn olunan şəxsin ovçu, döyüşçü olduğu qənaətinə gəldim. Düşündüm ki, həmin şəxs sakinlərin ov əti ilə təmin olunmasında və ya döyüşlərdə qəhrəmanlıqlar göstərib və bu səbəblərdən də hörmət əlaməti olaraq onun qəbir daşında da ox-yay həkk olunub. Amma yanıldım, təsadüfən əlimə Araz Qurbanovun "Damğalar, rəmzlər... mənimsəlir" kitabı düşdü və kitabda damğanın çox fərqli izahı verilmişdi.



Kitabda bildirilir ki, bu damğa işarəsi mülkiyyət hüquqları, səlahiyyət bölgüləri və hərb sənətindən savayı, həm də dövlətçilik tarixi və ənənələri ilə də sıx şəkildə bağlıdır. Məsələn, yay hökmdarın rəmzinə, ox isə (xüsusilə qızıl və ya gümüş dəmrəli oxlar) onun vassallarının, elçilərinin səlahiyyət göstəricisidir, eyni zamanda birgə savaşa çağıran dəvət "məktubu"dur.

Araz Qurbanova görə, yay hakimiyyət, ox vassalıq bildirən damğaların birliyidir.

### "Səni leylək gətirib"

Marağıma səbəb olan iki damğa da qəbir daşlarında fərqlənirdi. Onlardan birində iri dairə və onun da ortasında çox kiçik dairə vardı. Damğa sematikası üzrə mütəxəssislərin bir çoxu bu işarəni mifoloji "Dünyanın yaranması"nın, " Ana və bətnindəki övlad" anlamının qrafik təzahürü kimi yozurlar. Hətta daş abidələrin birində bu damğa quşun dimdiyində təsvir olunur və bu bizə uşaqların müəyyən yaş dövründə valideyndən soruşduğu - "Haradan gəlmişəm?" sualının cavabını– "Səni leylək gətirib"i xatırladır. Bəlkə də bir bağlılıq var. Amma burada Günəş və Aydan söhbət gedir.

Qəbir abidələrin digərində isə əllərini yanlara açmış adam təsviri marağıma səbəb oldu. Görünür, əllərini yanlara açıb Günəşə sitayiş edir. İri lüləli gil qabları xüsusilə qeyd etmək lazımdır. Ağzı camla örtülmüş bu qabların üzərində yapma bəzək (məməciklər) vardır. Digər qəbir daşında olan üç diş damğalar da diqqət çəkir.

Göründüyü kimi, bu simvol və rəmzlər qarşılıqlı sintez əsasında bir neçə dinin təsiri altında təşəkkül tapmışdır. Keçmişimizin göstəricisidir və onları qorumaq hər birimizin borcudur.

*(ardı var)*

*Pünhan ƏFƏNDİYEV,*
*"Xalq qəzeti"*

## Tarix və müasirlik

# “Erməni məsələsi” Cabbarlının bədii təqdimatında

**Tarixən bizlərə qarşı istifadə edilən “erməni məsələsi” kartının kökləri dərinlərə gedib çıxır. Azərbaycan ədəbiyyatı və mətbuatında bu məsələ Mirzə Fətəli Axundzadədən başlayaraq, Həsən bəy Zərdabi və davamçılarına qədər geniş qələmə alınıb. Osmanlıya qarşı formalaşdırılan “Şərq məsələsi”, “Xəstə dövlət” anlayışları kimi, “erməni məsələsi” də eyni qondarma mahiyyət daşıyıb.**



Ölümündən sonra belə Azərbaycan Cümhuriyyəti dövründəki millətsevər fəallığı sovetlər tərəfindən yaddan çıxarılmayan Cəfər Cabbarlı 1905-ci il hadisələrinin 25 illiyində, özü də sovet rejiminin tüğyan etdiyi bir zamanda eyni adlı pyesini yazmışdı. “1905-ci ildə” adını seçməklə bir sənətkar kimi məharətli gediş etmişdi. Görkəmli dramaturq həmin ildə ermənilərin törətdiyi tarixi qırğınları dəqiq əks etdirməklə yanaşı, şərtiliyi də ortaya qoymuşdu. Bu əsəri oxuyarkən 1918–1920-ci illərin qırğınları da göz önünə gəlmişdi.

Zamanında bəzi proletar tənqidçilər bu əsərin yazılmasını demaqoqluqla qınamışdılar. Təbii ki, 30-cu illərdə belə fikirlərin olması anlaşılandır. O dövrün sifarişli tənqidçi yazarları ötən tarixi, ümumiyyətlə, unutdurmaqda maraqlı idilər.

İctimai-sosial proseslərdən hələ yeniyetmə ikən xəbərdar olan Cəfər Cabbarlı bu əsərində də özünün həm dramaturq, həm də bir ictimai tədqiqatçı kimi bütün bacarığından istifadə etmişdir. Erməni personajlarına ad qoyarkən Eyvaz, Allahverdi kimi isimlərdən istifadə edən dramaturq dövrün tələbinə uyğun olaraq, xalqlar dostluğu xəttini qabartsa da, əslində, ermənilərin bizim mədəniyyətin təsiri altında olduqlarını əks etdirmişdir. Müəllif bolşevik Eyvaza “Koroğlu” dastanından gələn adı qoymaqla bu təsiri bədii baxımdan təsdiq edir.

Əsər məşhur “Sarı gəlin” mahnısının ifasıyla başlanır. Bununla Cəfər Cabbarlı tərəfindən ermənilərin bu musiqi əsərinə sahib çıxmaq istəməsi detalı da ortaya qoyulur. Mahiyyət etibarı ilə zorakı üsullara pis baxmayan bolşevik Eyvaz Əsriyanın dostu olan azərbaycanlı Baxşı belə işlərdən uzaqdır. Kasıb kəndli olan Baxşı inanır ki, insanlar bir-birini qırmadan belə azad gələcək qura bilərlər. Eyvazın Qarabağa gəldiyi zaman İmamverdiyə “mən naçalnik olsaydım əvvəl-axır hamınızı divara söykəyib güllələrdim” deməsi erməni xisləti ilə bolşevik qəddarlığının eyniliyi kimi görünür.

Kəndli Baxşı kimi, milli burjuaziya nümayəndəsi Bahadır bəy də qan tökülməsinin əleyhinədir. O, milli muxtariyyət istəsə də, buna həmişə Salamov mane olur. Qubernator kürd əsilli Salamova, guya, Türkiyənin mənafeyi üçün çalışaraq “Siz olmasanız, ermənilər Türkiyəni ələ keçirər”, – deyir. Bununla qubernator çoxplanlı oyununu sərgiləyir. Hiyləgərcəsinə Salamova təsir etməyə çalışır. Özünü hələ dağılmamış, müsəlmanları qismən də olsa, birləşdirən Osmanlı dövlətinin təəssübünü çəkən birisi kimi qələmə verir. Lakin onun əsas niyyəti “ikibaşlı qartalı” qorumaq üçün milli qarşıdurmanı alovlandırmaq olur. Cəfər Cabbarlı qubernatorun dilindən bu ifadələri verməklə, əslində, 1905–1920-ci illərdə Qafqazda və Anadoluda ermənilərin qırğın siyasətinin konturlarını oxuculara təqdim edə bilmişdir.

Salamovdan sonra Ağamyanla görüşən qubernator “Tatarlar vəhşi tayfadır” – deyərək onu da qızışdırmış olur. Burada Ağamyan Azərbaycan və Türkiyənin timsalında türklərə olan nifrətini püskürür. Bu səhnədə Keşiş personajı bircə dəfə danışsa da, kilsənin erməni şovinizmindəki rolu açıq görünür.

Milli qırğın siyasəti icra olunmağa başlayanda qubernatorla polismeyster arasında gedən dialoq diqqətə layiqdir. Polismeysterin “Kazaklar kimə kömək etsin?” sualına qubernator “Kimə? Heç kimə. Hər iki tərəfdə ara soyuduqda onları qızışdırsınlar” deyə cavab verir. Cəfər Cabbarlı onun dilindən belə lakonik cavabı verməklə obrazın mahiyyətini tamamilə açmış olur. Qubernatorun bolşevik Volodini ittiham edərkən onu vətən və millət xaini adlandırması, müharibədən çıxan imperiyanın taxt-tacını düşmənlərin ayağı altına salmaq istəməkdə ittiham etməsi də tarixi baxımdan həqiqəti əks etdirir. Burada Cabbarlı bir daha bədii şərtilikdən məharətlə istifadə edir. 1905-ci ildə başa çatmış rus-yapon müharibəsi timsalında 1917-ci il hadisələrinə də üstüörtülü toxuna bilir.

Nəhayət, azərbaycanlı Baxşı da silahlı üsyan fikrinin tərəfdarına çevrilir. Burada da ermənilərin xüsusi payı olur. Onlar Baxşını qubernatoru öldürməyə təhrik edirlər. Məhkəmə zamanı isə Eyvaz Əsriyan ittiham olunur. Bu zaman Baxşı günahı boynuna alsa da, Salamovun onu ermənilərin casusu adlandırması, yalan söylədiyini deməsi həyatını xilas edir. Qanlı hadisələrin təşkilində maraqlı olan Əsriyan çar məhkəməsi tərəfindən edama məruz qalır. Baxşı isə 5 il cəza alır. Bununla C.Cabbarlı bir sənətkar kimi “terrora dəstək verən erməni” anlayışını da ölümə məhkum edir.

Bu cəzanın elə çar Rusiyasının məhkəməsi tərəfindən verilməsi də düşündürücüdür.

***Ceyhun MİRZƏLİ,***
***sənətşünas***

## Türkün marşı



*Boy boylayıb, soy soylayıb ozan babam, Qorqud dədəm,*
*Qazax dədəm, özbək dədəm, türkmən dədəm, başqırd dədəm.*
*Savaşlardan barışlara cığır açıb Bozqurd dədəm,*
*Haqsızlığın qarşısında susmamışam - görk olmuşam,*
*Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.*

*Aydoğduyam, Gündoğduyam, Tanrıdağdan başlar yolum,*
*Qandal nədi bilməz əlim, zəncir nədi bilməz qolum.*
*Dağlar aşıb, çaylar keçib bəyim, xanım, şahım, ulum,*
*Bərkə-boşa düşən zaman inadımdan bərk olmuşam,*
*Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.*

*“Ərgənəqon”, “Yaradılış”, “Alp Ər Tonqa” sözüm mənim,*
*“Bilqamıs”dır, “Alpamış”dır, “Şu”dur, “Köç”dür izim mənim.*
*Manas kimi min illərdir yerə gəlməz dizim mənim,*
*Tarix ilə həmyaşıdam, artıq belə dərk olmuşam,*
*Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.*

*Qutluq Kağan, Xəzər Xaqan, Batı, Mete, Babur şahım,*
*Atilla, Alptəkin, Səlcuq, Xarəzmşah, Osman şanım.*
*Əmir Teymur deyəcək ki, tanı məni - bu nişanım -*
*Başımdakı börküm kimi, el-obama börk olmuşam,*
*Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.*

*Uzaq yollar yora bilməz Simurqumun qanadını,*
*Rüzgarları ötüb keçər, mahmızlasam boz atımı.*
*Xain kafir yaxşı bilir, yumruğumu, toqatımı,*
*Biri türkə soyuq baxsa, özüm türkə kürk olmuşam,*
*Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.*

***Elxan YURDOĞLU***

## Şair də sözünün əri olmalı



*Tutub əllərindən xatirələrin*
*Şairin getməyə yeri olmalı.*
*Hər yada düşəndə cana qor salan*
*Tək özü bildiyi sirri olmalı.*

*Gizlicə alışar, gizlicə yanar,*
*Sevər, sevdiyini hamıdan danar.*
*“Öl!” – desə, qəsd edib şirincə cana,*
*Uğrunda öldüyü biri olmalı.*

*Yalandı kim desə “şair dəlidi”...*
*Şair duyğuların peyğəmbəridi.*
*Kim deyir şairlər tez ölməlidi?*
*Şairlər hər zaman diri olmalı.*

*Bilir, özü bilir közlə oynayır,*
*Gah əl sığallayır, dizlə oynayır.*
*Deməyin: “şairdi – sözlə oynayır”,*
*Şair də sözünün əri olmalı.*

***Xaqani QAYIBLI,*** **Tallin**

## TƏSADÜF

*Bu gün səhər küçənizin tinindən keçdim,*
*Gedib-gələn, gəlib-gedən:*
*Adam doluydu.*
*Bu yol sənli günlərimin nicat yoluydu,*
*Gündə yüz yol uzunundan, enindən keçdim.*
*Gördüm həyat davam edir öz axarında,*
*Günəş doğub küçənizin baş tərəfində.*
*Bir kişi piştaxta qoyub yol kənarında,*
*Lotoreya biletlərin düzüb rəfində*
*Səsləyirdi: gəl, qalmadı “Ailə sevinci”.*
*Düşündüm ki, olmayan şeyin nə sevinci?!*
*Nə mən səni bağışlayım,*
*Nə sən rəhm elə,*
*Yaşa getsin ürəyimin daş tərəfində.*
*Bəlkə də heç o son görüş olmamalıydı...*
*Ömrüm ötdü “bəlkə”lərin “kaş” tərəfində.*
*Təsadüfən küçənizin tinindən keçdim...*
*Qürur sevgi, məhəbbəti boğur - deyirlər.*
*Təəssüf ki, anlamadın hələ sən bunu.*
*Təsadüflər zərurətdən doğur - deyirlər,*
*Təsadüfə inanmıram, biləsən bunu.*
*Təsadüfən binanızın önündən keçdim...*

***Elvin ƏLİZADƏ,***
***Sumqayıt***



## İgidlərin sözü

**“Xalq qəzeti”ndə vaxtaşırı Vətən müharibəsində şəhid və qazi olan, iştirak edən oğulların şeirləri, esseləri dərc olunur. Onlar Qarabağ sevgisini, yurd həsrətini təkcə silahlarının şaqqıltısı ilə deyil, həm də qələmlərindən süzülən poetik duyğuları ilə ifadə edib, ruhumuzun yaylım atəşlərinə dönüblər.**

Ötən il Şuşada Vaqif Poeziya Günlərində çıxış edən qazi şairlərdən biri də Eyvaz Əyyub idi. Oxuduğu şeirlərdən də görünürdü ki, qalib əsgər və zabitlərimizin ağrı-acılarını inandırıcı boyalarla ifadə edə bilir. Onun bir şeirini təqdim edirik.



*Salam, ata yurdum, ana ocağım*
*Salam, ay illərin həsrəti, salam,*
*Bizsiz darıxmısan, hövsələn darmı?*
*Salam, ev içində bitən gül, çiçək,*
*Bizi kənd etməyə həvəsin varmı?*

*Salam, ata yurdum, ana ocagım,*
*İllərin həsrəti bitdi, gəlirik.*
*Sən bizsiz, biz sənsiz çox darıxmışıq,*
*Vüsal arzusuna yetdi, gəlirik.*

*Salam, “Səngər” qala, salam, daş evim,*
*Balan üşüyübdü, qucagını aç.*
*Tanrım, bu torpağa ayaq basanda,*
*Göydən nur səpələ, ömrə sevinc saç.*

*Gizli cığırları bağlayan ağac,*
*Bizi düşmənlərdən qorumaq çətin.*
*Yerimə bitmisən evin içində,*
*Ağacı olaydım bu məmləkətin.*

*Bu qaya babama necə oxşayır,*
*Dözümü, qüruru görürəm onda.*
*Biz yurdu sahibsiz qoyub gedəndə,*
*“Mən çıxıb getmərəm!” demişdi o da.*

*Salam, buz bulaqlar, kövsər bulaqlar,*
*Həsrətdən göz yaşı tökdün, bilirəm.*
*Həzin gümüldənib, xəfif ağlayıb,*
*Nə qədər qəm, qüssə çəkdin, bilirəm.*

*Otuz ilə qədər keşik çəkdiniz*
*Sağ olun, bu evin yiyəsi gəlib.*
*Babam qaya, nənəm çəmən, anam gül,*
*Paslı qılıncların tiyəsi gəlib...*

***Eyvaz ƏYYUB,***
***qazi şair***

## Kitablar nədən danışır?

***Tanınmış tədqiqatçı jurnalist, yazıçı-publisist Vasif Quliyevin nankor ermənilərin kimliyini daha dərindən öyrənib bilmək istəyənlər üçün hazırlayıb nəşr etdirdiyi yeni kitabı “Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən” adlanır.***




“Şuşa” nəşriyyatında işıq üzü görən kitabda tərtibçinin tərcüməsində S. Qlinkanın “Ermənilərin Azərbaycana köçürülməsi”, İlya Çavçavadzenin “Erməni alimləri və fəryad edən daşlar”, Vasil Veliçkonun “Qafqaz” əsərindən “Ermənilər” adlı parça, Vladimir Mayevskinin “Qafqazda erməni-tatar qırğını erməni məsələsinin mərhələlərindən biri kimi” və onun Rusiyanın Ərzurumda baş konsul işlədiyi vaxtlardakı qeydləri toplanıb. Toplunun dahi rus şairi A.S.Puşkinin məşhur ifadəsi ilə adlandırılması uğurlu seçimdir.

Maraqlı cəhət burasıdır ki, kitab ermənilərin öz millətləri ilə bağlı söylədikləri fikirlərdən sitatlarla başlanır. Məhz həmin etiraflar erməni şairi Yegişe Çarenzin: “Bizdə ikiüzlülük ananın bətnində yaranır”, – fikrinin nə qədər doğru olduğunu sübut edir.

Vasif Quliyevin oxuculara təqdim etdiyi bu kitab həm də bir mənbə kimi də çox dəyərlidi.

*

*Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Qəmər xanım Cavadlının ideya müəllifi, tərtibçisi və redaktoru olduğu “Nəsildən nəsilə” kitabı ənənəvi ailə dəyərlərinə önəm verən bir nəslin həyat hekayələrindən ibarətdir. Nəşrdə ötən əsrin əvvəllərində baş verən dəhşətli zəlzələdən sonra Şamaxını tərk edərək Bakıya köçmüş Cavadlılar ailəsinə həsr olunub.*

Kitab Qəmər xanımın atası, mətbuat cəfakeşi olmuş Əməkdar mədəniyyət işçisi Adil Cavadlının 100 illik yubileyi ilə əlaqədar çap olunub. Cavadlılar nəslinin ayrı-ayrı nümayəndələrin də xatırlandığı kitabın təqdimat mərasimində qeyd edildiyi kimi, burada yubilyara daha çox yer verilib. Əvvəlcə “Azərbaycan müəllimi”, “Bakı” və “Baku” axşam qəzetlərində müxtəlif vəzifələrdə çalışmış , sonra isə uzun illər “Kommunist” qəzeti redaksiyasında baş redaktorun 1-ci müavini olmuş Adil Cavadlı mətbuat veteranı kimi özəl məziyyətləri ilə tanınıb. Unudulmaz qələm sahibi dünya malında əsla gözü olmayan, halal, mənəviyyatca təmiz,




böyük əxlaq sahibi, nəcib bir insan, peşəkar jurnalist kimi yadda qalıb.

***Ə.ƏLİYEV,***
***“Xalq qəzeti”***

## DAŞ QAZAN



*Yanmış kibrit çöplərinə baxıram:*
*başından kül olmağın*
*kədəri bürüyür könlümü...*
*Həyat sonda ayaqlarımızın*
*dibinə gömür işığımızı -*
*eynən kibrit çöpləri kimi...*
*Sevdiyim şeirləri qalın*
*kitablara sürgün eləyiblər,*
*Bir də onları axtarıb tapmağa*
*vaxt nə gəzir?*
*Oğlumun gözlərindən başqa*
*sürətim hər yerdə kiçilir.*
*Ölüm ayağındaymışam kimi*
*itirib bütün mənasını sirlərim.*
*Qəlbimin daşlığında boğuldu*
*tumar çəkməyə həsrət əllərim.*
*Könlümdə qiyama qalxıblar*
*dilimdəki qullar...*
*Sizə ölüm yoxdur, ey unutmadıqlarım...*
*Daş qazandır yaddaşım -*
*gec qızar, gec soyuyar.*

***Fərid HÜSEYN***



## DEDİYİN



*Daşın yaşıl yuxusudu*
*daşda bu mamır dediyin.*
*Vaxtın əlində o sənsən,*
*bu mənəm xamır dediyin.*
*Nələr çəkdim, nələr çəkdi,*
*nələri çəkməkdə təkdi.*
*Sinəmdəki bu ürəkdi*
*közərmiş kömür dediyin.*
*Salam verirəm almırsan,*
*məni yadına salmırsan.*
*Yalvarıram, yumşalmırsan,*
*yumşalır dəmir dediyin.*
*Qəsdin varsa, qəsdimə gəl,*
*üşüyürsən, istimə gəl...*
*Yuxumdan çıx, rastıma gəl,*
*keçir e ömür dediyin.*

***Yavər HƏSƏN***
**Moskva**

*Hekayə*

## CALAQ



...Həyətimizin tən ortasında qollu-budaqlı bir tut ağacı vardı. Dünyaya göz açandan, o tut ağacını eləcə boy-buxunlu, budaqlarının ucları az qala göyə dirənən görmüşdüm. Kəndin hansı yanından baxsaydın, gözünə dəyən birinci o tut ağacı olacaqdı. Bu, yarımdünya tut ağacının yaz-yay ayları özgə ləzzəti olardı. İstidən adamın nəfəsinin qaralan vaxtı, tutun kölgəsinə kilimdən, palazdan atıb bir stəkan çay içməklə, elə bil behişti satın almış olurdun. Gecələr bürküdən bağırların daralan vaxtı, hardansa sərinliyi çəkib gətirərdi bu tut ağacı. Bir-birinin “böyrünü qıdıqlayaraq, xışıltıyla gülən yarpaqların səsi”, yayın qorabişirən vaxtı adamın ürəyinə elə bil sərin su çiləyirdi. Gövdəsindəki kələ-kötür “qırışlar”, bu azman tut ağacının tarixlər yola saldığından xəbər verirdi. Tut ağacının barı-bəhəri yox idi, hamı bu tuta “erkək tut” deyirdi. Doğrudan da, bu tutun boy-buxunundan, üç-dörd adamın əl-ələ tutanda bir-birlərinə əlləri yetməyən gövdəsinə, göy üzünə çətir tutmuş enli şax-şəvəlinə baxanda, onda “kişilik”, “erkəklik” nişanəsinin şahidi olurdun. Çünki ətrafdakı “dişi tut” ağaclarının gövdələri də, boy-buxunları da qadın incəliyindən, qadın zərifliyindən xəbər verirdi. Hətta, onların meyvə gətirən vaxtı, budaqlarının sıxlaşıb, toplaşması və yavaş-yavaş yerə doğru sallaşması, sanki qısa vurulmuş qız saçlarına bənzəyirdi.

Bir gün evdəkilərin hansınınsa ağlına gəldi ki, qapıdakı erkək tutun da qol-budağını kəsib, “dişi tut”un budaqlarından calaq edilsin. – Nə eyibi var, qoy meyvə gətirsin də, - dedilər.

Kənddə arpabiçilən vaxtı, calaq işindən başı çıxanın birini gətirib, tut ağacını budayıb, tökdülər yerə. Sonra qonşuluqdakı “dişi tut”ların nazik budaqlarından kəsib, calaq elədilər onun kəsilmiş budaqlarının yerinə.

Həftələr keçdi, aylar ötdü, yerin lap təkindən qidalanan “erkək tut”, az müddətdə üstündəki kövrək budaqları böyüdüb, xeyli qaldırdı. Növbəti il budaqlar bolluca meyvə gətirdilər. Və elə bu vaxt qəribə bir hal baş verdi. Tut gilələri ala-kal olan kimi, tut ağacı birdən-birə qurudu. Elə qurudu ki, üstündə nə bir yaşıl yarpaq qaldı, nə də dərdə dərmanlıq bircə tut giləsi.

Təbiətin sərt və amansız qanunları varmış, sən demə... “Erkək tut” ağacı da, bu dəyişikliyi öz şəninə sığdırmadı. O, ucalığını, “erkəkliyini” itirdiyinə görə, “ölməyi” üstün tutdu...

***Meyxoş ABDULLAH***
**Cəlilabad**

# Rusiya–Ukrayna müharibəsi: artıq təkcə hərbçilər deyil, diplomatlar da "döyüşürlər"

**Rusiya-Ukrayna müharibəsi hansı tərəfin qələbəsi ilə başa çatacaq? Son il yarımda bu mövzuda saysız-hesabsız ehtimallar, fikir və mülahizələr səsləndirilib. Ümumi rəy belədir ki, Rusiya hərbi və canlı qüvvə baxımından daha güclüdürsə, Ukrayna əsgəri daha motivasiyalıdır.**



Hər bir müharibənin taleyi döyüş meydanlarında həll olunsa da, son sözü, əlbəttə, siyasətçilər və diplomatlar deyirlər. Reallıq budur ki, böyük güclər Rusiya–Ukrayna müharibəsinin bitməsi üçün real addımlar atmağa başlayıblar. Bununla da sülh danışıqlarına faktiki olaraq start verilib.

Dünən Səudiyyə Ərəbistanının Ciddə şəhərində otuz ölkənin iştirakı ilə başlanan məsləhətləşmələr Rusiya–Ukrayna münaqişəsinin tarixində yeni mərhələnin başlandığına dəlalət edir. Ən qəribə və maraqlı cəhət budur ki, həmin danışıqlara Rusiya, Ukrayna rəsmiləri dəvət edilməyiblər.

Bu məqamda Ukraynada son sutka ərzində ağır döyüşlərin xronologiyasına nəzər yetirək. Dünən cəbhənin bütün təmas xətti boyunca atışmalar davam edib. Ukrayna Silahlı Qüvvələri (SQ) Baş Qərargahının operativ məlumatında deyilir ki, son 24 saatda 40-a yaxın döyüş qarşıdurması qeydə alınıb.

Dünən ruslar tərəfindən Ukraynaya 57 hava zərbəsi endirilib, çoxsaylı reaktiv yaylım atəşi sistemlərindən 29 atəş açılıb. Ukraynanın hava hücumundan müdafiə qüvvələri rəqibin 15 dronunu zərərsizləşdirib. Lakin ölkənin bütün ərazisinə raket və hava zərbələri təhlükəsi qalır.

UNİAN agentliyi xəbər verir ki, Rusiya qoşunları ağır artilleriyadan istifadə edərək Nevsk, Biloqorivka, Verxnokamyansk, Spirna, Torsk yaşayış məntəqələrinə zərbələr endiriblər. Donetsk vilayətinin şərqində yerləşən Baxmutda isə ağır döyüşlər səngimək bilmir.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahın məlumatına görə, ruslar Marinski şəhərinə də hücum ediblər. Zaporojyedə isə 20-dən çox yaşayış məntəqəsi vurulub. Ukrayna Müdafiə Qüvvələri, öz növbəsində Melitopol və Berdyansk istiqamətlərində hücum əməliyyatını davam etdiriblər.

Göründüyü kimi, 2022-ci il fevralın 24-də başlayan və artıq 18 aydır davam edən Rusiya–Ukrayna müharibəsi tərəflərin heç birinin aşkar üstünlüyünün olmadığı, ağır, üzücü bir dövrə daxil olub.

Bu arada məlum olub ki, Rusiya hökuməti 2023-cü il üçün hədəf müdafiə xərclərini iki dəfə artırır. "Reuters" agentliyinin məlumatına görə, 2023-cü ilin ilk altı ayında Rusiyanın müdafiə xərcləri 5,59 trilyon rubl təşkil edib ki, bu da əvvəlcədən planlaşdırılandan 37,3 faiz çoxdur.

Ukraynanı isə Qərbdəki müttəfiqləri dəstəkləməkdə davam edirlər. Məsələn, bu günlərdə Almaniya Ukraynaya yeni hərbi texnika tədarük edib. Müvafiq sənəd Bundestaqın saytında yerləşdirilib.

Siyahıya əsasən, Ukraynaya son bir həftə ərzində iki minatəmizləmə tankı təhvil verilib. "T-72" tankları üçün 11 mina əleyhinə avadanlıq gətirilib. Almaniya Danimarka və Norveçdən Ukraynaya iki "Zuzana 2" özüyeriyən haubitsasının təhvil verildiyini təsdiqləyib.

Yenidən sülh danışıqları mövzusuna qayıdaq. Dünən Səudiyyə Ərəbistanının Ciddə şəhərində Ukrayna ilə məsləhətləşmələr başlayıb. İki gün davam edəcək müzakirələrdə 30 ölkənin nümayəndələri iştirak edir.

Toplantı təhlükəsizlik üzrə müşavirlər səviyyəsində keçirilir. Məsləhətləşmələrə Braziliya, Böyük Britaniya, Zambiya, Çin, Misir, Aİ, Hindistan, İndoneziya, Meksika, Polşa, ABŞ, Çili, Cənubi Koreya, Cənubi Afrika Respublikası və digər dövlətlərdən rəsmi şəxslər qatılıb. Çini Avrasiya məsələləri üzrə xüsusi nümayəndə Li Hui təmsil edir.

Görüşün məqsədi siyasi və diplomatik səylərlə böhranın həlli yollarına dair beynəlxalq səviyyədə fikir mübadiləsi və koordinasiya vasitəsilə dialoq və əməkdaşlığı gücləndirməkdir.

Bakı Dövlət Universitetinin "Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının professoru Aydın İbrahimov bildirdi ki, Ciddə danışıqları Rusiya–Ukrayna müharibəsinin danışıqlar yolu ilə bitməsi üçün növbəti addımdır. Münaqişənin ilk aylarında Türkiyənin təşəbbüsü ilə İstanbulda müzakirələr olmuşdu. Sonra Çin tərəflər arasında vasitəçilik etmək təşəbbüsündə bulundu. Bu təşəbbüslər o zaman real nəticə vermədi.

Professor A.İbrahimov hesab edir ki, Ciddə danışıqlarından ciddi nəticə gözləməyə əsas yoxdur. Belə ki, buna bənzər təşəbbüslər bundan sonra da olacaq. Sülh danışıqları uzun çəkən prosesdir. Rusiya və Ukraynanın məqsədləri tamam fərqlidir. Vacib olan odur ki, liderlər siyasi iradə və güc tapıb bu münaqişəyə son qoysunlar.

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Atamoğlan MƏMMƏDLİ,**
**tarix elmləri doktoru, politoloq**

– Tarixdə bütün müharibələr gec-tez danışıqlar, müzakirələr yolu ilə başa çatır. Son günlər Ukraynada döyüşlərin dayandırılması ilə bağlı təklif və mülahizələr tez-tez səsləndirilir. Fikrimcə, Səudiyyə Ərəbistanın Ciddə şəhərində sülh danışıqlarının başlanması heç də təsadüfi deyil, tarixi zərurətdən qaynaqlanır.

Rusiya-Ukrayna müharibəsinin ilk günlərində çoxları savaşın Rusiyanın xeyrinə tezliklə bitəcəyini ehtimal edirdilər. Amma, bu, belə olmadı. Belə ki, Ukrayna xalqı fədakarcasına doğma torpaqlarının müdafiəsinə qalxdı.

Bu müharibə iki yaxın qonşu slavyan xalqları arasında gedir. Bu vaxtadək hər iki tərəfdən on minlərlə insan həlak olub. Onların arasında uşaq, qadın, ahıllar olmaqla, çox sayda dinc sakinlər də var.

İkinci Dünya müharibəsindən sonra planetimizdə heç vaxt belə böyük miqyasda müharibə olmayıb. Bu savaş beynəlxalq iflasa uğradığını sübut edir. Dünya gözümüz önündə çalxalanır. Planetimizə yeni dünya düzəni lazımdır. Hələlik isə böyük güclər proksi müharibələr aparıb rəqiblərini zəiflətməklə məşğuldurlar.

Ukraynanın yüzlərlə şəhəri, minlərlə kəndi dağıdılıb. Ölkə əhalisinin az qala üçdə biri qaçqın və köçkün düşüb. Onların böyük bir qismi yaxın və uzaq xarici ölkələrdə məskunlaşıb. Müharibənin nə vaxt bitəcəyi tarixi ehtimal etməyə heş kəs cəsarət etmir.

Müharibələr yeni, daha ağır silahların sınağı üçün geniş meydandır. Böyük dövlətlər silah satışından böyük gəlirlər əldə edirlər. Ona görə də planetimizin bu və ya digər regionlarında ağır münaqişə ocaqlarının "peyda olması" təbiidir. Nisbətən balaca xalqları, kiçik dövlətlərin taleyi isə heç kimi düşündürmür.

Dünyada həqiqətən ədalətli və prinsipial siyasət yürüdən bir dövlət varsa, o da qardaş Türkiyədir. Məlum olduğu kimi, bu il avqustun 2-də Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin arasında telefon danışığı olub. Türkiyə lideri Ukraynada müharibənin dayandırılması üçün gərgin səylər göstərir. Mütərəqqi bəşəriyyət bunu alqışlayır.

Ümid etmək istərdik ki, planetimizdə tezliklə sağlam düşüncə və məntiq qələbə çalacaq və Ukrayna torpağına, nəhayət, sülh və əmin-amanlıq gələcək.

# Tarixin qara səhifəsi: 06.08. 1945. 09:45:43

## Bu rəqəmlər nüvə silahından hərbi məqsədlə ilk istifadənin start göstəricisidir...

**Yetmiş səkkiz il bundan əvvəl ABŞ-ın "B29 Enola Gay" təyyarəsi "Uran 235" tipli 15 tonluq atom bombasını günahsız Xirosima sakinlərinin üstünə atdı. Müdhiş partlayış nəticəsində 200 minlik şəhərdə 27 min insan həyatını itirdi. O vaxtdan bugünədək Xirosimada radiasiyadan ölənlərin ümumi sayı 145 mini ötüb.**



Xirosimadan 3 gün sonra, avqustun 9-da saat 10:45 radələrində Birləşmiş Ştatların "Platinium 239" tipli hərbi təyyarəsi "Fatman" (kök adam) adlı 21 tonluq ikinci nüvə başlığını Naqasakiyə atır.

Hadisədən 6 gün sonra Yaponiya qeyd-şərtsiz təslim oldu. 1945-ci il 6 avqust faciəsinin qurbanlarının xatirəsinə həmin gün tarixə Ümumdünya Nüvə Silahlarının Qadağan Edilməsi Günü kimi düşüb.

Hazırda Xirosima və Naqasakiyə atılan atom bombalarından dəfələrlə böyük dağıdıcı gücə malik nüvə silahları Rusiya, ABŞ, Çin, Hindistan, Pakistan, İngiltərə, Fransa arsenalına daxildir. Bu dövlətlər Xirosimaya atılan bombadan 2500 qat güclüsünü istehsal etməyə qadirdir. Alimlərin hesablamalarına görə, indi dünyada 3 mindən çox nüvə başlığı var. Amma Yer planetini məhvərindən çıxarmağa cəmi ikisi-üçü yetər.

* * *

XXI əsrdə bəşəriyyət Rusiya və NATO ölkələrinin timsalında nüvə qarşıdurmasından, atom müharibəsindən danışır. Bu təhdidedici hərbi ritorika daha çox RF Təhlükəsizlik Şurasının sədr müavini, keçmiş prezident və baş nazır Dmitri Medvedevin dilindən səsləndirilir. Moskvanın "diplomatik nüvə hücumlarına" "Profil" jurnalının baş redaktoru Sergey Karaqanov da dəstək verir.

"Düşmən bilməlidir ki, onun keçmiş və indiki hücumları müqabilində qlobal termonüvə müharibəsinin qarşısını almaq üçün cavab olaraq qabaqlayıcı zərbə endirməyə hazırıq. Amma onlar geri çəkilməsələr necə? Onda bir sıra ölkədə bir neçə hədəfi vurmalı olacağıq ki, ağılları başına gəlsin". Bu sözlərin müəllifi, sərt siyasi baxışları ilə tanınan Karaqanova görə, Rusiya "nüvə silahının tətbiq edilməsi həddini endirməklə", onun çəkindirici rolunu yenidən "inandırıcı amilə çevirməli olacaq". Artıq dünya Moskvanın nüvə təhdidlərinə sanki öyrəşib. Fəlakət düyməli nüvə diplomatı daim yanında olan Vladimir Putin Rusiyanın Belarusda taktiki nüvə silahlarını yerləşdirdiyini təsdiqləyib. O bildirib ki, bu addım Moskvanı "strateji məğlubiyyətə" düçar etməyə ümid edənləri ciddi düşünməyə vadar edəcək.

Məsələnin maraqlı və önəmli tərəfi həm də odur ki, Ukrayna müharibəsində nüvə silahından istifadə edilib-edilməməsi mövzusu az qala ictimai müzakirəyə çıxarılır.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə dünyanın fərqli nöqtələrində hərbi əməliyyatların gözlənilməz nəticələrə gətirib çıxardığına dair çoxlu nümunə var. Amma ən böhranlı vəziyyətdə belə tərəflərdən heç biri nüvə silahından istifadə etməyib. Nüvə zərbəsi münaqişəni tamamilə gözlənilməz səviyyəyə qaldıra və qarşıdurma riskini dəfələrlə artıra bilər.

Əlbəttə, Avropanı radioaktiv xarabalığa çevirə biləcək "nüvə ruleti" olduqca təhlükəli oyun, tətbiq edilə biləcək ən pis hərbi taktikadır. Hərdən macəra həvəskarları, təhlükəli qumar oyunlarının "va-bank"çıları kimi danışan Kremlin rəsmi və qeyri-rəsmi təhdidçi-ekspertləri bunu unutmamalıdırlar.

Müşahidə etdiyimiz hərbi-siyasi mənzərə budur ki, Ukrayna ordusunun əks-hücumlarının gücləndiyi vaxtda Kremldə Qərbə qarşı radikal hərbi ritorika artdıqca, nüvə silahından istifadə barədə müzakirələr də gündəmdə qalmaqda davam edir.

*İ.HƏSƏNQALA,*
*"Xalq qəzeti"*

# Fransa silah ixracında da liderlik iddiasına düşüb

**(əvvəli 1-ci səhifədə)**

Fransalı mütəxəssisin sözlərinə görə, dördüncü nəsil "Rafale" qırıcısının tədarükü bu prosesdə əsas rol oynayacaq. Belə ki, cari ilin iyul ayında Fransa prezidenti Emmanuel Makron və Hindistanın baş naziri Narendra Modi arasında keçirilən danışıqlarda Paris sərfəli müqavilələr bağlamağa nail olub. Dehlinin 26 qırıcı və 3 "Scorpene" sualtı qayığı ilə təmin edilməsi planlaşdırılır. Qətər də 24 fransız qırıcısının alınmasını nəzərdən keçirir. Kolumbiya daha 16, Serbiya isə 12 qırıcı almağa hazırlaşır. Məlumat verilir ki, hazırda Fransanın xaricə 210, Rusiyanın isə cəmi 84 hərbi təyyarə tədarük edəcəyi gözlənilir.

P.Vezeman hesab edir ki, "Rafale" indiyədək Rusiyanın Su-30MKI qırıcısı ilə uğurla rəqabət aparır. Qeyd etmək yerinə düşər ki, "Rafale" 1986-cı ildə ilk uçuşunu həyata keçirən ekskluziv fransız təyyarəsidir.

SIPRI-nin mart ayı üzrə açıqladığı hesabatda deyilir ki, son 10 ildə Fransa hərbi məhsulların satışını 59 faiz artırıb. 2021-ci ildə bu göstəriciyə görə Paris Çini keçib. 2023-cü ilə qədər Fransa silah bazarının 11 faizini tutmağa başlayıb. Bu rəqəm 5 il əvvəl 7,1 faizə bərabər idi. Rusiyanın isə bu göstəriciyə görə 16 faizlik payı 6 faizə düşüb. Nəzərə alsaq ki, 2022-ci il fevralın 24-dən sonra Rusiya hərbi-sənaye kompleksi bütünlüklə ordunun ehtiyaclarını ödəməyə yönəlib, o zaman demək olar ki, fransız silah istehsalçıları üçün müsbət tendensiya davam edəcək.Siyasi analitiklər bildirirlər ki, Fransanın mövqelərinin güclənməsinə ABŞ-ın da müəyyən təsiri var. İddialara görə, ABŞ Qərbin istehsal etdiyi silahları almaq üçün digər ölkələrə təzyiq göstərir.





Fransada 300 minə yaxın işçinin çalışdığı hərbi sənaye kompleksi var. Mütəxəssislərin sözlərinə görə, Hindistanla bağlanmış son müqavilə həm də ölkənin sualtı qayıqlarla təmin olunması baxımından diqqəti çəkir. Avstraliya ilə müqaviləyə xitam verildikdən sonra, bu, çətin vəziyyətdə olan fransız istehsalçısına kömək edəcək.

Xatırladaq ki, sualtı qayıqların tikintisi üzrə müqavilə Avstraliya tərəfindən 2022-ci il fevralın əvvəlində ABŞ və Böyük Britaniyanın daxil olduğu AUKUS İttifaqının üzvü olduqdan sonra pozulub. Hazırda amerikalılar fransızların əvəzinə avstraliyalılar üçün sualtı qayıqlar istehsal edirlər. Müqaviləni pozmaq qərarı, Paris və Vaşinqton arasındakı münasibətlərdə böhrana da səbəb olub və iki ölkə arasında münasibətlərdə "soyuq külək"lərin əsməsi Rusiya–Ukrayna münaqişəsindən sonra dayanıb.

Eyni zamanda, rusiyalı ekspertlər bildirirlər ki, Fransa silah bazarında hələ də Rusiyaya çata bilməyib. Üstəlik, fransız silah istehsalçılarının hesabatlarına baxmayaraq, bir çox cəhətdən onların işləri o qədər də yaxşı deyil. Məsələn, AMX-56 Leclerc tanklarının ixracı ilə bağlı göstəricilər belə deməyə əsas verir. Həmin tanklar Parisin lobbiçilik cəhdlərinə baxmayaraq, Ukraynaya ötürülməyib. Ona görə ki, fransız tanklarının təsirinin az olduğu bildirilib. Hazırda NATO Almaniyanın "Leopard" tanklarına üstünlük verir.

Hərbi ekspertlərin sözlərinə görə, fransızların tank istehsalından daha güclü hərbi təyyarə sənayesi var. Lakin Fransa burada NATO-nun, ən azı Avropanın şəksiz lideri ola bilmir. Birgə layihələri var, xüsusi ilə "beşinci nəsil" Avropa qırıcısının yaradılması barədə təkliflər mövcuddur. Ancaq tərəflərin bir-birinə hərbi sirləri açmaq istəməmələri və digər fikir ayrılıqlarının yaranması "beşinci nəsil" təyyarəsinin meydana çıxmasına əngəl yaradır. Buna görə də, bir sıra mütəxəssis məsləhət görür ki, Fransa hərbi sənaye kompleksinin gələcəyi ilə bağlı parlaq proqnozlar verməyə tələsmək lazım deyil.

***Hazırladı:***
***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 165 (30281) 6 avqust 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Paralimpiyaçımız dünya çempionatında qızıl medal qazanıb




**Paraüzgüçümüz Raman Saley İngiltərənin Mançester şəhərində keçirilən dünya çempionatında 100 metr sərbəst üzmə növündə 53.32 saniyə nəticə göstərərək yarışın qızıl medalına sahib çıxıb.**

Bu barədə "Xalq qəzeti"nə Milli Paralimpiya Komitəsindən bildirilib.

Qeyd edək ki, 3 qat paralimpiya çempionu bundan əvvəl 100 metr məsafəyə arxasıüstə üzmə növündə gümüş medala sahib olmaqla, həm də Paris-2024 Yay Paralimpiya Oyunlarına lisenziya əldə edib. İdmançımız, həmçinin 50 metr məsafə üzrə sərbəst, 100 metr məsafəyə butterfly üsulu ilə üzmə yarışlarında bürünc medal qazanıb.

## Dünya kuboku: 5 heç-heçə, 1 məğlubiyyət

**Bakıda şahmat üzrə dünya kuboku yarışında 3-cü mərhələnin ilk görüşləri keçirilib.**



Azərbaycan şahmatçıları Teymur Rəcəbov ispan Hayme Santos, Nicat Abasov niderlandlı Aniş Giri, Rauf Məmmədov Yan Nepomnyaşi, Abdulla Qədimbəyli Rey Robson, Ülviyyə Fətəliyeva Çin təmsilçisi Yu Vençjunla heç-heçə ediblər. Təmsilçilərimizdən yalnız Qədir Hüseynov rəqibi Lenyer Domingesə uduzub.

## II MDB Oyunlarında 10 medal

**Azərbaycanın komandası Belarusun paytaxtı Minskdə keçirilən II MDB Oyunlarında ilk medallarını qazanıb.**




Gənclər və İdman Nazirliyindən "Xalq qəzeti"nə bildirilib ki, cüdo komandasının üzvləri Nihad Məmişov (50 kq), Ayxan Mirzəzadə (55 kq), Cəsur İbadlı (66 kq) bütün rəqiblərini məğlub edərək qalib adına layiq görülüblər. Digər cüdoçularımız Xədicə Abdullayeva (40 kq), Aytən Verdiyeva (52 kq) isə bürünc medala sahib çıxıblar.

Güləşçilərimiz Məhəmməd Şükürzadə (60 kq), Ziya Babaşov (60 kq) gümüş, Tural Mehtiyev (55 kq), Həsən Məmmədli (67 kq) bürünc medala layiq görülüblər.

Daha bir bürünc medalı komandamızın aktivinə bədii gimnastika üzrə gənclərdən ibarət yığma komandamız yazdırıb.

## "Neftçi" mərhələ adlaya bilməyib

**3x3 basketbolu üzrə Dünya Qadın Seriyasının Praqa mərhələsində "Neftçi" klubu dörddəbir final oyununa çıxıb.**



Təmsilçimiz Çexiya komandası ilə matçda 17:18 hesabla məğlub olub. Bununla da "ağ-qaralar" mərhələ adlaya bilməyib.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri

## Sınaq laboratoriyası kosmosda…



***"SpacePharma" şirkəti mikroqravitasiya mühitində tibbi təcrübələr aparmaq üçün kosmosa uzaqdan idarə olunan laboratoriya göndərdiyini açıqlayıb.***

Laboratoriya NASA-nın Beynəlxalq Kosmik Stansiyasına məxsus olan ABŞ kosmik təchizat raketinin göyərtəsində yerləşdirilib. Məqsəd bəzi xərçəng və beyin dərmanlarının kliniki tətbiqindən əvvəl test etməkdir.

Təcrübələr çəkisi 3,4 kiloqramlıq laboratoriyada aparılacaq və bu, farmakoloji tətbiqlərin daha dərindən öyrənilməsinə imkan verəcək. Təcrübələrdən biri prion zülalına bağlana bilən molekulları müəyyən etmək və ölümcül degenerativ beyin xəstəliyi olan "dəli dana" xəstəliyinə gətirib çıxaran yanlış müalicənin qarşısını almaq məqsədi daşıyır.

Təcrübənin kosmosda aparılmasının səbəbi, materialların mikroqravitasiya şəraitində aşağı sıxlığa malik olması və yavaş kristallaşma prosesini inkişaf etdirdiyi üçün izlənilməsidir. İsrail Kosmik Agentliyi (ISA) qeyd edib ki, sınaq uğurlu olarsa, bu, alzeimer və parkinson kimi digər degenerativ beyin xəstəlikləri üçün dərmanların inkişafına kömək ola bilər.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

## Böyük Britaniyada dron poçtalyonluq edir

***BBC xəbər verir ki, Orkney adaları Böyük Britaniyada poçtu dronla çatdıran ilk yer olubdur. Belə ki, bu əməliyyat "Royal Mail" və "Skyports" dron xidməti tərəfindən həyata keçirilib. "Royal Mail" adalar arasında məktub və bağlamaları paylamaq üçün limanları dayanacaq məntəqələri olaraq təyin edib.***



İlkin sınaqlar zamanı Şotlandiya məktəbləri üçün yemək, Mull xəstəxanasına tibbi maskaların çatdırılması uğurla başa çatıb. Sözügedən xidmətin ilkin olaraq üç aylıq fəaliyyəti maliyyələşdirilsə də, "Royal Mail" tələbat yaranarsa, fəaliyyət müddətini artıracaqlarını bildirib. Gələcəkdə dron xidməti səviyyəsinin də əhəmiyyətli dərəcədə yaxşılaşdırılacağı gözlənilir. Poçt işçilərinin texniki təhlükəsizliyini təmin etmək üçün qurğuların mexanizmlərində dəyişiklik aparılacaq.

*"Xalq qəzeti"*

Maraq dünyamız

## Sıfır mənasız deyil

***Sıfır hətta bizim üçün çətin bir anlayışdır. Kiçik uşaqlar isə sıfır rəqəmini digər rəqəmlərdən gec başa düşürlər və çox vaxt onun birdən az və ya daha çox olduğunu müəyyən etməkdə çətinlik çəkirlər.***



Arılar kiçik beyinləri ilə sıfır klubuna qoşulmaq üçün çətin bir namizəd kimi görünə bilər. Ancaq onlar təəccüblü dərəcədə yaxşı inkişaf etmiş rəqəmsal bacarıqlara malikdirlər. Alimlər arıların sıfırın mənasını anladığını müəyyən ediblər.

Xatırladaq ki, sıfır bir anlayış kimi qədimlərdən bəllidir. Onu Babil və Maya yazılarında görmək mümkündür. Fəsillərin keçidini göstərmək üçün istifadə edilib. Qədim alimlər isə sıfırla hər hansı bir rəqəmin "yoxluğunu" bildirirdilər . Sıfır bir rəqəm kimi ilk dəfə Hindistanda qəbul olunub.

## Zelandiya qitədirmi?



***Neçə qitəni bilirsiniz? Altı, yoxsa yeddi? Yəqin ki, sizi təəccübləndirəcək ki, Yer kürəsində Zelandiya adlı başqa bir (gizli) qitə var. Kəşfin özü yeni deyil, bəzi geoloqlar arasında onun mövcudluğu ilə bağlı mübahisə uzun illərdir ki, davam edir. Lakin 2017-ci ildə bir qrup elm adamı Zelandiyanın su basmış qitənin bütün tələblərinə cavab verdiyi qənaətinə gəlib.***

Hazırda Zelandiya dünyanın 8-ci qitəsi kimi təklif olunur. Araşdırmalara görə, Zelandiya coğrafi qitədir (mikro qitə və ya kontinental hissə deyil) və təxminən 4,9 milyon kvadratkilometr ərazini əhatə edir, 94 faiz su və Yeni Zelandiyanın Şimal və Cənubi adaları, Yeni Kaledoniya və digər adalardan ibarət qurudan ibarətdir.

Bu qitənin Avstraliyadan 85 milyon il öncə qoparaq ayrıldığı bildirilir.

## "Qara dəlik"



***"Qara dəlik"lər görünməzdir? Onların cazibə qüvvəsi o qədər böyükdür ki, hətta işıq onlardan keçə bilmir. Nəticədə "qara dəliy"i vizuallaşdırmaq üçün edilən hər hansı bir cəhd gözlənən nəticələri vermədi. Lakin 2019-cu ildə astrofiziklər onların, əslində, nəyə bənzədiyini təsdiqləyə bildilər. Boston Universitetinin astronomları Alan Marsher və Svetlana Jorstad və 200 beynəlxalq əməkdaşdan ibarət komanda, nəhayət, "qara dəliy"in ilk şəklini çəkə bildilər.***

Albert Eynşteynin ümumi nisbilik nəzəriyyəsinə əsaslanaraq, bunun elm adamlarının təsəvvür etdiyi kimi göründüyünü aşkar etdilər.

Araşdırmaçılar öncə yalnız bir "qara dəlikli" qalaktikanı müəyyən etmişdilər. Onun adı (Süd yolu) "Milky Way"dır. Lakin sonralar, astronomiya və astrofizika alimlərinin təkmilləşdirdikləri alətlərin hesabına, qalaktikada 25 milyona yaxın böyük və kiçik ölçülü "qara dəliyə" malik ulduzların olduğunu təsbit etdilər.

## İsti su niyə tez donur?




***İsti su soyuq sudan daha tez donur. Bu fakt ilk baxışdan inandırıcı görünmür, amma doğrudur. Erasto Mpemba adlı tanzaniyalı tələbə isti dondurma qarışığının soyuq dondurma qarşığından daha tez donduğunu kəşf edib.***

Hazırda bu Mpemba effekti adlanır. Səbəb isə isti su hissəciklərinin sürətlərinin müəyyən bir nizama sahib olmasıdır ki, bu da onların daha tez dondurulmasına imkan verir. Mpemba effektinə səbəb olan amillərdən biri maye kütləsidir. Məsələn, 30 °C və 70 °C tarazlıq temperaturlarında bərabər həcmli mayelər soyudulur və 70 °C su buxarlandığı üçün kütləsini itirir və digər mayedən daha tez donur.

*Pünhan ƏFƏNDİ, "Xalq qəzeti"*

Sağlamlıq

## Oynaq ağrılarının çarəsi

***Kollagen son illərdə populyarlıq qazansa da, hələ də hamı onun faydalarından xəbərdar deyil. Belə deyirlər ki, oynaq ağrılarının azaldılmasında, dəri sağlamlığının qorunmasında kollagen böyük rol oynayır. Kollagen bədəndə ən bol zülaldır. O, dəridə, sümüklərdə və əzələlərdə çox olur.***



Həkim Tatyana Zaxarovanın sözlərinə görə, kollagen qəbulunun artırılması oynaqlar arasında əlavə yumşaq dəstək yaratmağa kömək edə, sürtünməni və buna görə də ağrıları azalda bilər. O deyib ki, kollagen zamanla qığırdaqların parçalanması riskini azalda bilər ki, bu da uzun müddətdə sağlam oynaqların və əzələlərin qorunmasında son dərəcə faydalı ola bilər.

Kollagen sümük sıxlığını, onun gücünü və quruluşunu artırmağa kömək edə bilər.

Nəticədə, həyatın sonrakı dövrlərində osteoporozun inkişaf riski, sınıq riski də azalır. Maraqlıdır ki, tədqiqatlar kollagen qəbulunun qadınlar üçün daha faydalı olduğunu aşkara çıxarıb. Araşdırmalar göstərib ki, kollagen qəbulunu artıran qadınların sümük sıxlığı başqalarına nisbətən 7 faiz çoxalıb.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz



## Hava yağmursuz keçəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 6-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 22-27°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət gecə 50-60, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25°,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 31-36°, dağlarda gecə 12-17°, gündüz 18-23° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## "Skoda"nın 2 yeni modeli

**"Skoda" dörd il əvvəl Avropa bazarında debüt etmiş "Scala" hetçbekini və "Kamiq" krossoverini yeniləyib. Hər iki model yenidən işlənmiş barmaqlıqlar və bamperlər, təkərlər və istəyə bağlı matrisli LED faralarla təchiz olunub.**



Artıq avtomobillərin əsas avadanlıqlarında 8 düymlük rəqəmsal tablosuna displeylər və multimedia sistemləri daxildir. 15 millimetr daha çox klirensi olan istəyə bağlı kobud asma mövcuddur. Çexiya brendi olan "Skoda", həmçinin komponentlərin istehsalında təkrar emal olunmuş materialların payını artırdıqlarını bildirib.

*"Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4892
SİFARİŞ 1943
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00